**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

**Əlyazma hüququnda**

“Azərbaycan dili və ədəbiyyatı” kafedrasının magistrantı

**Ulduz Rahim qızı Talıbova**

(magistr elmi dərəcəsi almaq üçün)

# HÜSEYN CAVİDİN “TOPAL TEYMUR” ƏSƏRİNDƏ TARİXİLİK VƏ MÜASİRLİK

# DİSSERTASİYA İŞİ

**İxtisaslaşma...060201Filologiya-Azərbaycan ədəbiyyatı**

**ELMİ RƏHBƏR:** **Fil.f.d.,b/m. E.Ə.Mustafayeva**

**BAKI-2015**

# MÜNDƏRİCAT

**GİRİŞ.......................................................................................................3**

**I FƏSİL. H.Cavidin “Topal Teymur” əsərində türk tarixinin təsviri........................................................................................................7**

**II FƏSİL.“TopalTeymur” əsərində tarixi şəxsiyyətlər və onların bədii inikası tarixilik və müasirlik fonunda................................................31**

**NƏTİCƏ .....................................................................................................62**

**İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT ...............................................65**

# Giriş

**Mövzunun aktuallığı**. Ümumbəşəri dəyərə malik əsərləri ilə Azərbaycan ədƏbiyyatında yeni mərhələ yaradan, romantik dramaturgiyamızın banisi H.Cavidin insana yeni, fərqli münasibəti baxımından onun yaradıcılığı dönə dönə tədqiq olunmaq zərurəti yaradır.

H.Cavid dramlarının tədqiq olunmasının vacibliyindən bəhs edən K.Əliyev yazır: "Cavid dramaturgiyası Azərbaycan ədəbiyyatı tarixində spesifik, özünəməxsus, həmişə seçilən ədəbi-estetik mənbədir. Bu dramaturgiya hadisələrin cərəyan etdiyi yerinə və zamanına, dialoq və qarşılaşmaların xarakterinə, obrazların düşüncə və arzularına, habelə neçə-neçə belə xüsusiyyət, əlamət və cəhətlərinə görə təhlil olunmağa layiq bir dramaturgiyadır. Məhz təhlil olunduqca problemləri bitib-tükənməyən, hər tədqiqatda yeni bir problem, daha böyük məsələ doğuran H.Cavid yaradıcılığı bu gün ən böyük ədəbi məktəblərdən biridir və həmin ədəbi irs insanı özünüdərkə, mənəvi saflığa, ucalığa, mənəvi azadlığa səsləyir".

H.Cavid yaradıcılığının, o cümlədən dramaturgiyasının öyrənilməsi sahəsində tənqid və ədəbiyyatşünaslığın təcrübəsi zəngin və çoxcəhətlidir. H.Cavidin tənqidçiləri onun öz dövründə də özündən sonrakı dövrlərdə də çox idi. Ədəbiyyat tarixində H.Cavid qədər tənqid olunan ikinci sənətkar yoxdur.

Bizim ideologiyamıza, şüurumuza özümüzü dərk etmək baxımından təsir edəcək fikirlərin açılmasının, tarixlərin gizlədilməsinin və ya təhrif edilməsinin zamanı keçmişdir. Faktlara obyektiv yanaşma ideoloji yönləndirməni üstələməkdədir. Məhz belə bir şəraitdə Cavid kimi sənətkarların yaradıcılığının tədqiqi bir daha aktuallaşmaqdadır.

Hüseyn Cavidin əsərlərini Şərq ölkələrinin ən mühüm dövrlərinin bədii-tarixi salnaməsi hesab etmək olar. Bu əsərlərdə mürəkkəb və ziddiyyətli hadisələrin siyasi mənzərəsi maraqlı bədii lövhələrlə canlandırılır.

Cavid görkəmli dövlət xadimlərinin, məşhur sərkərdələrin tarixi xidmətlərini bədii sözün qüdrəti ilə təsvir etmişdir. Bu əsərlər Şərq tarixinin ulu çağlarından başlayaraq sonrakı dövrlərədək ictimai-siyasi həyatın panoramını canlandırmış, tarixi

şəxsiyyətlərin həyat və fəaliyyətlərinin təbliği və tanımasında da mühüm rol oynamışdır.

Mövcud siyasi şəraitdən asılı olaraq cavidşünaslıqda özünü göstərən qeyri-obyektiv meyllər “Topal Teymur” pyesinin (1925) təhlilində daha qabarıq şəkildə ortaya çıxmışdır. Bu isə ilk növbədə pyesin mövzusundan irəli gəlmişdir. Axı türk tarixindən hüsn-rəğbətlə danışanlara “pantürkist” damğasının vurulduğu bir dövrdə Əmir Teymurdan həqiqi bədii əsər yazmaq çətin olduğu kimi, həmin əsəri axıracan obyektiv təhlil etmək də asan deyildi. Çətinlik daha çox onda idi ki, Əmir Teymurun qanlar tökdüyünü təsdiqləməklə yanaşı, onun qüdrətli şəxsiyyət olduğunu və türk zəfər tarixinə şanlı səhifələr yazdığını da göstərmək lazım gəlirdi.

Hüseyn Cavid görkəmli dövlət xadimlərinin, məşhur sərkərdələrin tarixi xidmətlərini bədii sözün qüdrəti ilə təsvir etmişdir. O, real faktları lazım olduqda öz sənətkar təxəyyülünə tabe etmiş, heç vaxt tarixi xronika yaratmamışdır.

Cavidin “Topal Teymur” tarixi dramında qoyduğu problemlər həmişə aktual olub, bütün dövrlərdə öz müasirliyini qoruyub saxlaya bilmişdir. Dramaturq müasirlik kontekstindən çıxış edərək həmişəyaşar problemləri tarixdən gələn mövzu üzərində işləmiş, bütün dövrlərlə səsləşərək bədii körpü yaratmağa nail olmuşdur.

**Tədqiqatın əsas məqsədi və vəzifələri**. Tədqiqatın əsas məqsədi H.Cavidin “Topal Teymur” pyesini müxtəlif baxımdan təhlil edib dəyərləndirməkdən, əsərin tarixi rolunu və müasir hadisələrlə nə qədər səsləşdiyini müəyyənləşdirməkdən ibarətdir. Bunun üçün aşağıdakı məsələlərin araşdırılmasına xüsusi diqqət yetirilmişdir:

- Hüseyn Cavidin türk ədəbiyyatına və türk mədəniyyətinə verdiyi töhfələr;
- Türk ədəbiyyatında “Topal Teymur” mövzusu;
- Teymur tarixi şəxsiyyət kimi;
- Teymur və İldırım Bəyazid obrazlarının müqayisəli təhlilini aparmaq;
- Əsərdəki digər tarixi şəxsiyyətlərin (Şair Kirmani və Şeyx Buxari) fəlsəfi görüşlərini tədqiq etmək;
- Əsas obrazların səciyyəvi xüsusiyyətləri;
- H.Cavidin “Topal Teymur” dramında tarixi mövzularla müasir dövr arasında

yaratdığı bədii körpünü şərh etmək.

**Elmi yenilik.** Müasir dövrdə H.Cavidin tarixi əsərlərinin, tarixi şəxsiyyətlərin bədii obrazlarının, tarixilik və müasirlik baxımından tədqiqi ədibin irsinə yeni aspektdən yanaşmadır.

Ədibin yaradıcılğının bu qədər öyrənilməsinə baxmayaraq, onun sənəti həmişə yeni söz, yeni fikir demək imkanı verir. Azərbaycan ədəbiyyatşünaslığında Hüseyn Cavid dramaturgiyasından çox yazılsa da, ədibin "Topal Teymur" pyesi tədqiqata az cəlb olunmuş əsərlərdən hesab olunur.

"Topal Teymur" dramında H.Cavidin bədii portret yaratmaq ustalığına ayrıca toxunulmuş, ümumiyyətlə ədibin tarixi şəraiti real boyalarla təsvir etməsi yüksək qiymətləndirilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyanın əsas tədqiqat obyekti Hüseyn Cavidin "Topal Teymur" dramında tarixilik və müasirliyin vəhdəti təşkil edir. Bundan əlavə dramda təsvir edilən tarixi şəxsiyyətlərlə bağlı mənbələrdən də istifadə olunmuşdur.

Tədqiqatın əsas predmeti isə "Topal Teymur" dramında tarixi şəxsiyyətlərin bədii obrazlarının, mübarizə yolunun tarixi gerçəklik baxımından öyrənilməsi və bədii həllidir.

**Tədqiqat işinin metodologiyası.** Tədqiqata dünya ədəbiyyatşünaslığında uğurla sınaqdan çıxmış tarixi-müqayisəli metoddan istifadə edilmişdir.

**Tədqiqat işinin strukturu.** 68 səhifədən ibarət olan dissertasiya giriş, iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısını əhatə edir.

Tədqiqat işinin "H.Cavidin "Topal Teymur" əsərində türk tarixinin təsviri" adlı I fəslində Hüseyn Cavidin türk ədəbi mühitinə və mədəniyyətinə verdiyi töhfələri, türk tarixinə şair baxışını, türk tarixində tarixi şəxs olan Teymura münasibət, digər türkçülərin bu tarixə ədəbi baxışları, Teymur və İldırım Bəyazid arasında yaranmış gərginliklərin səbəbini, türklərə xas xarakterlərin açılışını görə bilərik.

Dissertasiyanın "TopalTeymur" əsərində tarixi şəxsiyyətlər və onların bədii inikası, tarixilik və müasirlik fonunda" adlanan II fəslində isə əsərdəki obrazların tarixi və bədii açılımı, tarixə şairin münasibəti, xarakterlərin qarşılaşdırılması və

müqayisəsi, bəzən tarixə müraciət və əsərin müasirlik kontekstindəki yeri və digər məsələlərə toxunulur.

Nəticədə bütün bu fikirlər ümumiləşdirilir.

Tədqiqat işinin sonunda dissertasiyada istifadə olunmuş ədəbiyyat siyahısı göstərilmişdir.

# I FƏSİL

## H.Cavidin "Topal Teymur" əsərində türk tarixinin təsviri

Zəngin mədəniyyətə sahib olan hər bir millətin tarixində önəmli fikir və sənət adamları olmuşdur. Hüseyn Cavid Türk dünyasının önəmli şəxsiyyətlər arasında qabaqcıl ideyaları ilə şöhrət qazanmış ədibdir. Hüseyn Cavid yaşadığı çağa, mühitə sığmırdı. Onunla toplum arasında yerlə göy fərqi vardı. Cavid mürəkkəb və eyni zamanda ziddiyyətli həyat və yaradıcılıq yolu keçmişdir. Daim həqiqət, ədalət, səadət axtarışı yolunda çırpınan romantik ruhlu şair qəhrəmanlarının taleyini yaşamış, iztirablı, mürəkkəb bir həyat yolu keçmişdir. Hüseyn Cavidin əsərləri Türk dünyasında özünün dərin fəlsəfi məzmununa, ümumbəşəri ideyalarına, milli xüsusiyyətlərinə görə mühüm əhəmiyyətə malik olan ölməz sənət nümunələridir.

Hüseyn Cavid mütəfəkkir şair, gözəl dramaturq və böyük filosof idi. Türk aləmində mövcud olmuş ideyalar, problemlər o dövrün bir çox yazıçı və şairləri kimi Hüseyn yaradıcılığında da özünü büruzə vermişdir. H.Cavid heç zaman xırda məişət məsələlərini qələmə almamışdır. Əsasən cəmiyyəti narahat edən problemlər onun hədəfinə çevrilmişdir. Elə buna görə də Cavid dövrünün güzgüsü adlandırılmışdır. Romantik şair istər ailə, istər cəmiyyət, istərsə də bəşəri məsələləri əsərlərində tarix pərdəsi altında işıqlandırmağa çalışmışdır. O, yaşadığı dövrdə - XX əsrin əvvəllərində romantik sənətkarların yüksək ruhundan, realist ədiblərin fakt – hadisə gerçəkliyindən, ümumtürk insanı ideyasının bəhrələrindən qidalanaraq, hər üç aspekti özündə birləşdirən sənət əsərlərinin nümunələrini yaratmışdır.

İstər xalqımız, istərsə də dövlətimiz bu ölməz vətən oğlunun layiqli qiymətini verir. Ümummilli lider Heydər Əliyevin Cavid taleyinə münasibəti, siyasi liderin, dövlət başçısının mənsub olduğu xalqın klassik irsinə, mənəvi mədəniyyətinə münasibətinin ən parlaq nümunəsidir. Ulu öndərimiz Hüseyn Cavid yaradıcılığına böyük qiymət verərək demişdir: "Hüseyn Cavidin bütün yaradıcılığı, bütün fəaliyyəti Azərbaycan xalqının mədəniyyətini yüksəklərə qaldırmaqdan, xalqımızı azad,

müstəqil xalq etməkdən ibarət olubdur. Onun bütün yaradıcılığı Azərbaycan xalqını milli azadlığa, müstəqilliyə çağırıbdır.O, həmişə öz iradəsilə yaşamış, öz iradəsinə, millətinə sadiq olmuş, millətinə həddindən artıq xidmət edən bir insan olmuşdur."(2)

Cavid çoxları kimi "dövrün nəbzini tutan", müvəqətti, keçici şöhrət və uğur dalınca qaçmadı. Bu, ona çox baha, özünün və ailəsinin həyatı və sağlamlığı hesabına başa gəlsə də, sənətin əbədi və müqəddəs yolundan dönmədi, bütün zamanlar üçün diri olacaq və həmişə ehtiyac duyulacaq pyeslərini yazıb gələcək nəsillərə yadigar qoydu.

Hüseyn Cavid türkçülük ideyalarının alovlu tərənnümçülərindən biri idi. Onun əsərlərində türkçülüklə azərbaycançılıq vəhdət təşkil edirdi. XIX yüzilin sonu, XX yüzilin əvvəllərində yetişən türkçülər nəslinin görkəmli nümayəndələrindən biri kimi Hüseyn Cavid təkcə Azərbaycan türkləri üçün yazmırdı, bütün türk dünyası üçün yazırdı, Cavid üçün türklük bir bütöv idi.

Cavid üçün vətən Azərbaycanla məhdudlaşmır, o, Turanı, Türk dünyasını hər bir türk övladının beşiyi və məzarı bilir. Ədibin əsərlərindəki türkçülük və turançılıq düşüncəsi burdan qaynaqlanır. Lakin Cavid romantizminin dalğaları bəzən Turana sığmır, onun hüdudlarını aşaraq Şərq-İslam dünyasına və bütün yer kürəsinə yayılır. Bu isə onun bəşəriliyini şərtləndirir.

Türkçülük hərəkatı XIX yüzilin sonu, XX yüzilin əvəllərində islamçılıq, osmançılıq, avropaçılıq kimi fikir cərəyanları arasında mühüm yer tutmuş millətin vahid ideologiyası olduğu üçün bütün türklər yaşayan ərazilərdə xüsusən Osmanlı və Rusiya türkləri arasında vahid proses olaraq inkişaf etmişdir.

XX əsrin əvvəllərində Türkiyə, Azərbaycan ədəbi əlaqələri, türkçülük ideyalarının birindən digərinə yayılması yüksələn xətlə inkişaf etmişdir. Azərbaycan ədəbiyyatı ilə oxşar proseslər Türk ədəbiyyatında da getməkdə idi. Ayrı-ayrı dövlət ərazilərində olmaqlarına baxmayaraq genetik mənsubiyyətlərinə, təhsil sistemindəki və mədəni həyatdakı yaxınlıqlarına görə Türkiyə və Azərbaycan arasında qarşılıqlı əlaqələr mövcud idi. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması, türk ordusunun Azərbaycanı düşmən pəncəsindən qurtarması, ədəbiyyatda türkçülüyün, hətta Turançılığın güclənməsinə səbəb oldu. Bununla bağlı Türkiyədə, Azərbaycanda bir

sıra cəmiyyətlər açıldı ki, bunlar da türk mədəni birliyinə güclü təsir göstərdilər. Bu cəmiyyətlərdən biri də “Türk ocağı” idi. M.Məmmədzadə yazırdı: “Mən keçmişdə və gələcəkdə elə bir mədəni təşkilat zənn etmirəm ki, “Türk ocağı” qədər əhəmiyyət və təkan vermişdir. Parça -parça olmuş, müstəqil millətlər halinə gəlmiş türk xalqlarını dil, hüsnü-ədəbiyyat və tarixcə ümumiləşdirmək, mədəni bir türk milləti yaratmaq vəzifəsini öhdəsinə alan bu cəmiyyət nə qədər ağır və mühüm bir məqsəd ilə çalışmış olur ” (5, 22 yanvar,1920,№97).

Hüseyn Cavid də bu cəmiyyətin öncüllərindən biri idi. Türkçülük ideyaları Azərbaycan və Türkiyə mühitinin qarşılıqlı əlaqəsi fonunda inkişaf etmiş, milli özünüdərkin, mənlik şüurunun yüksəlməsinə və nəhayət milli istiqlal əldə olunmasına öz təsirini göstərmişdir.

XX əsrin ilk onilliklərində Azərbaycan romantiklərinin son hədəfi qüdrətli ümumtürk mədəniyyəti formalaşdırmaqdan ibarət idi. Bu ideya həmin dövrdə sürəkli inkişaf dövrü keçirən mədəni türkçülük hərəkatının başlıca məqsədlərindən biri olmuşdur

H.Cavid sənətinə , şairin ədəbi estetik görüşlərinə və fəlsəfi –fikir anlayışlarına türk ədəbiyyatının üç nəhəng sənətkarının qüvvətli təsiri olmuşdur. Tarixi –romantik səpkidə mənzum dramlarına Əbdülhəqq Hamidin;yüksək bəşəri fikirləri fəlsəfi üslubda tərənnüm edən əsərlərinə Tofiq Fikrətin vətənpərvərlik və vətəndaşlıq pafosu ilə zəngin şeirlərinə Namiq Kamalın təsiri aydın hiss olunur.

H.Cavid yaradıcılığının əsas məğzi, ideyası türkçülük ideyalarıdır. Var-dövlətə, cah-cəlala, altuna yox, milli şüura, milli qürura və mədəniyyətə sahib olmaq lazımdır:

Türk ordusu daim basaraq ölkələr almış,

Ən sonda siyasətdə basılmış da bunalmış.

İdraki sönük başçıların qəfləti ancaq

Etmiş, edəcək milləti həp əldə oyuncaq.

Turana qılıncdan daha kəskin ulu qüvvət, -

Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət!...( 17, s. 27)

Cavid göstərməyə çalışırdı ki, Türk milləti Avropa millətlərindən fərqli olaraq bir dildə danışar, bir ürəyə sahib olar. Başqa sözlə, türklər ikidilliliyi, ikiüzlülüyü bacarmaz. Ancaq düşmənə yalnız savaş meydanında qalib gəlməklə də iş bitmir. Ona görə də türklər müharibə meydanında olduğu kimi, mədəniyyət və elmdə də düşmənlərindən öndə olmalıdırlar. Cavidin fikrincə, millətin həyatında özəlliklə, elm və mədəniyyət elə bir anlayış, ünsürdür ki, bu sahədə görülən hər iş irəliyə doğru bir addımdır. Hər kəs mədəniyyət və elmin təməlinə bir daş atmalıdır ki, gələcək nəsillər ondan qidalansın. Başqa sözlə, elm və mədəniyyətdə geridə qalmaq bir millətin gələcəyi üçün çox təhlükəlidir. Ona görə də, bir millətin savaşda məğlub olması deyil, elm və mədəniyyətdə geridə qalması fəlakətdir.

Hüseyn Cavid türk mədəniyyətinin və ədəbiyyatının inkişafı yolunda mübarizə aparmış, türk xalqlarının birliyi uğrunda həmişə çalışmışdır.Cavidin İstanbulda təhsil görməsi, Türk ədəbiyyatının güclü təsiri altında olması, həyatının önəmli bir dövrünü Türkiyədə keçirməsi də bunlara təkan vermişdir. Cavid İstanbulda təhsil aldığı illərdə türk ədəbi camiasının ən tanınmışları, o cümlədən, Cavid yaradıcılığı üzərində güclü təsir buraxmış T.Fikrət, R.Tofiq, Cənab Şəhabəddin, Xalid Ziya Uşaqlıgil kimi şəxslərdən yararlanmışdır. Hüseyn Cavid haqqında xatirələrdə də onun türk ədəbiyyatı nümayəndələrini dönə-dönə oxuduğu və hər zaman türk ədəbiyyatını təbliğ etdiyi yazılır. Dövrün ən önəmli şəxsiyyətləri ilə tanış olmuş, türkçülüklə bağlı ənənələri dərindən mənimsəmişdir. İsmayıl Qaspıralı, Məmməd Əmin Yurdaqul, Ziya Göyalp kimi türkçülərin ideyalarını inkişaf etdirərək, “dildə, fikirdə, işdə birlik” şüarı ilə hərəkət etmişdir.“Türk böyükdür, qüdrətlidir, bütün yüksək və gözəl nə varsa türklə bağlıdır” fikri Hüseyn Cavidə Məmməd Əmin Yurdaquldan keçmişdir.

“Cavid Türkiyədə aldığı təhsilin nəticəsi olaraq Türkçülük, İslamçılıq təfəkkürünün mahiyyətini genişləndirir. Artıq o, Azəri ədəbiyyatındakı Türk ideolojisi tərəfdarının yanında, hətta onlardan daha da öndə gedərək pantürkist, panislamist kimi tanınır. Artıq onun cəmiyyət dostları, məhəbbət axtarışlarının yanında, əsərlərində ən çox araşdırdığı mövzu tamamən Türkçü bir fəlsəfəyə yönəlir... O, bu səbəbdən də əsərlərində tez-tez Türk dünyasındakı faciələrə israrla yer verir”. (51, s.161)

Cavidin əsərlərində türkçülüklə azərbaycançılıq vəhdət təşkil edirdi. Onun yazdığı "Hərb və fəlakət", "Dəniz tamaşası", "İştə bir divanədən xatirə", "Türk əsirləri" və s. kimi şeirlərində türklərin ümumtürk bayrağı altında birləşməyini təbliğ edirdi.

Cavid Türk millətinin hər zaman mərd, vicdanlı, ədalətli olmasını arzulayaraq, riyadan, kindən, acizlikdən, qorxaqlıq və bu kimi pis xasiyyətlərdən uzaq olmasını istəyirdi:

Zalımları, cəlladları çeynəyin, hiç qorqmayın,

Türk milləti, görülməmiş, boyun büksün, yalvarsın. (15, s.128)

Bir çox türkçülər kimi Hüseyn Cavidə görə də ümumtürk ədəbi dilin yaranması, millətin vahidliyini göstərən ən ümdə vəzifələrdən biri idi. "Dilsiz bir millət çapıq münqəriz olur, bir millətin lisanı mövcudiyyətinin ən parlaq bürhanıdır".

Dünyanın bir çox ölkələrində yaşayan Türk xalqlarının vahid millət olduğunu qəbul etmək türkçülüyün əsas şərtlərindən biridir. Bunun ən önəmli məsələlərindən biri də ortaq türk ədəbi dilinin formalaşması idi. Türk xalqları üçün vahid dil ideyası XIX əsrin əvvəllərinə kimi ziddiyyətli bir yol keçmişdir. Bu fikir ilk dəfə İsmayıl Qaspıralı tərəfindən irəli sürülmüşdür. İsmayıl Qaspıralı 20-ci əsrin əvvəllərində yaranan «Rusiya Müsəlmanları İttifaqı» təşkilatında yaxından iştirak etmişdi. Bu təşkilatın qurultaylarında (1906) Qaspıralının təklifi ilə Türk məktəblərində vahid türk dilinin həyata keçirlməsi istiqamətində ortaq türk ədəbi dili ilə yazılmış kitabların oxudulması haqqında qərar qəbul edilmişdi. Bu baxımdan, həmin dövrdə Qaspıralı Azərbaycan türk mütəfəkkirlərinin (Əhməd Ağaoğlu, Əli bəy Hüseynzadə, Məhəmməd Hadi, Nəsib Yusifbəyli və b.) əsərlərinə «Tərcuman»da geniş yer vermişdir. Bu mənada, Qaspıralı Azərbaycan türklərinin oyanmasında da müəyyən rol oynamışdı. Ortaq Türk dili ideyasının müdafiə edən H.Cavid də M.Ə.Rəsulzadə və Ə.Hüseynzadə kimi hesab edirdi ki, Türk dünyasının dil birliyi digər birliklərdən daha önəmlidir. Bu mənada, Cavid əsərlərini qələmə aldığı ilk illərdən etibarən ortaq Türk dilini özü üçün bir yol seçmişdir. Belə ki, Azərbaycan Türk aydını istər şeir və dramlarında, istərsə də publisistik yazılarında bütün Türk dünyasının anlaya biləcəyi

bir Türk dilindən istifadə etmişdir. "Ümumtürk ədəbi dilinin naminə mücadilənin əsasını İsmayıl Qaspıralı qoymuşdusa, onu yekunlaşdıran, sona çatdırıb mükəmməl bir türk ədəbi dilinin bünövrəsini hazırlayan Cavid əfəndi olmuşdur" (1, s.51).

H.Cavidə görə qardaşlıq məfhumu hər şeydən əvvəl dildən başlayır. Çünki böyük şair elə bir dili istifadə edirdi ki, onu artıq türkcənin banisi hesab etmək olar. O bütün türk dünyasının bir-biriylə rahat ünsiyyət qura bilməsi üçün eyni kökə sahib olan türk dillərinin ortaq bir dilini yaratmışdı. Ortaq Türk dili ideyasını müdafiə edən H.Cavid də M.Ə.Rəsulzadə və Ə.Hüseynzadə kimi hesab edirdi ki, Türk dünyasının dil birliyi digər birliklərdən daha önəmlidir.

1917-ci ildə "Hərb və fəlakət" şeirində "Səni qurtarsa, qurtarır birlik" qənaəti ilə çıxış etməsi də Hüseyn Cavidin ümumtürk ədəbi dili ideyasına xüsusi önəm verməsinin ifadəsi idi.

Milli ideoloq M.Ə.Rəsulzadə də Ə.Hüseynzadə kimi, Türk dünyasının parçalanmasına yönəlmiş dil siyasətini yaxşı analadığı üçün türk dilinin məhəlli şivələrinin inkişafına qarşı olmuşdur. Məhz bunun nəticəsidir ki, Rəsulzadənin təşəbbüsü ilə Azərbaycan Cümhuriyyətində (1918-1920) natamam ali və ali məktəblərdə Türkiyə türkcəsinin qrammatikası əsasında, ancaq Azərbaycan türkcəsinin də qayda-qanunları nəzərə alınmaqla ortaq türk dili keçilmişdir. Hətta Müsavat Partiyasının ikinci qurultayında (1919) qəbul edilmiş proqramında da, M.Əmin bəyin təklifi ilə ortaq türk birliyindən və ortaq türk dilindən çıxış edilmişdir.

Mustafa Haqqı Türkəqul "Azərbaycan türk şairi Hüseyn Cavid" adlı əsərində Cavidin istifadə etdiyi dil haqqında belə söyləmişdir: "Yaradıcılığının ilk dövrlərində bilxassə şeirlərində İstanbul şivəsini məharətlə işlədən şair, sonralar yaratdığı əsərlərində bu şivəni Azərbaycan ədəbi türkcəsinə yaxınlaşdırmağa çalışmış və demək olar ki, bu işdə müvəffəq olmuşdur. Bunun üçün də Cavidin türkcəsinə nə tamamilə İstanbul türkcəsi, nə də tamamilə Azərbaycan ədəbi türkcəsi demək qabildir. Cəsarətlə deyə bilərik ki, Cavid bu iki türkcə şivə arasında bir körpü yaratmış, və bu iki şivə arasındakı məsafəni qısaltmışdır.

Hüseyn Cavidin işlətdiyi türkcə olduqca dadlı və işlənmiş, gözəl bir türkcədir. Şimali və Cənubi Azərbaycan, Türkiyə, Türküstan və s. türk ellərində tək bir

münəvvər bulunmaz ki, Cavidi oxusun, onu anlamasın və onun türkcəsindən zövq almasın” (46, s.53)

Türkçülüklə bağlı olan məsələlərdən biri də tarix birliyidir. Tarix birliyi millətin başlıca cəhətlərindən biridir. Eyni soy-kökə, eyni mənşəyə sahib olan xalqların eyni tarixi də yaşaması təsadüfi deyildi. Elə buna görə də, türk tarixinə həsr olunmuş əsərlərin meydana gəlməsi bu baxımdan çox önəmli idi. Milləti özünə tanıtmaq və bu yolla onun yüksəlişinə nail olmaq əsas şərtlərdən idi. Əli bəy Hüseynzadə deyirdi: “ biz türk tarixini, türk böyüklərini qərəzli, türkə düşmən mənbələrdən deyil, türk dühasının məhsulu olan antik tarixi abidələrdən, türk qələmi ilə yazılmış əsərlərdən öyrənməli, özümüzü tanımalıyız ”.

Romantiklərin türk tarixinə, tarixi Turan gerçəkliyinə tez tez müraciət etmələri də onların türkçülük fikrinə mühüm əhəmiyyət vermələrindən doğurdu. O dərəcədə ki, romantiklərin kulturoloji görüşlərinin əsasını mədəni türkçülüyün prinsipləri təşkil etməkdədir – deyə bilərik.

Hüseyn Cavid türklük qürurunu və şərəfini hər şeydən üstün tuturdu. Onun üçün Çingiz xan,Əmir Teymur və b. türk hökmdarları türk tarixinin ən şanlı qəhrəmanlarıdır. Cavidin fikrincə, avropalılar İskəndəri, Napoleonu və digər hökmdarlarını böyük sərkərdə adlandırıb, heykəllər yapdıqları halda, türklərin öz qəhrəmanlarina qan içən, zalım kimi isimlər verib ləkələməyi haqsızlıqdır: “Əcnəbilər böyük İskəndər, böyük Napoleon deyə öz qəhrəmanlarına abidələr yapdırıyor, heykəllər dikdiriyorlar. Fəqət bizlər!.. Bizlər isə Çingiz kibi cihangirlərə, Teymur kibi qəhrəmanlara xunxar, canavar deyə ləkələmək istiyoruz!” .(14, s.70)

“Qoca bir türkün vəsiyyəti” şeirində Cavid yazırdı:

Bir millətin tarixidir kökü, yurdu, yuvası,

Tarixiniz baş ucundan hərgiz əksik olmasın.

«Altay» dağı, «Makan» çölü, «Yasın» ovası,

Birər aydın səhifədir, hər türk gərək anlasın…

Bir millət öz kökü üstə bitər, böyür, yüksəlir,

Köksüz ağac çabuq qurur, çiçək açmaz, bar verməz.

Baqın, görün tarixiniz sizə nələr göstərir,

Həp şərəf, həp böyüklükdür, ancaq şaşılar görməz

Əvət, arslan yavrularım! Türk eli həp şanlıdır,

Elmas kibi ləkəsizdir, saqın, qafil olmayın.

Əsr, iyirminci əsrdir! Vəzifəsi pək ağır...

Arş iləri! Qomşular yol aldı, geri qalmayın!..(14, s. 128-129)

Beləliklə, Cavid türk tarixinin obyektiv öyrənilməsinin və türk böyüklərinin doğru dəyərləndirilməsinin vacibliyini bəyan etmişdir. Cavid qələmə aldığı faciələrdə Şərq taleyinin müxtəlif ciddi problemlərini işıqlandıraraq türkçülük ideyalarını təbliğ etmişdir. Azərbaycan Türk filosofunun fikrincə, Türk hökmdarlarına başqa millətlərin alimlərinin deyil, millətimizin öz alimlərinin gözü ilə baxıb qiymət verməliyik. Eyni zamanda, Cavid türklərin həmişə törələrinə sahib çıxmalarını və milli şərəflərini uca tutmalarını, xüsusilə qeyd etmişdir.

Ədibin fikrincə, türkün cavanşir oğulları bütün cahanda öz yüksək bəşəri keyfiyyətləri, mərdanəliyi və səmimiliyilə tanınıblar. Odur ki, Cavid yaradıcılığında türkün tarixən haqq, ədalət, vicdan naminə çarpışan hökmdarları ilə öyünüb fəxarət duymağımıza qadağa qoyanlara qarşı mübarizəyə qalxır. Yüksək intellekti, dərin erudisiyası, zəkavəti və səbatlığı ilə heyrət doğuran Qazi Bürhanəddin, Mirzə Cahanşah Həqiqi, Şah İsmayıl Xətai, Hüseyn Bayqara, Şahrux Mirzə, Uluq Bəy, I Mahmud, II Mahmud və b. neçə-neçə cəmi xaqanlarımız böyük filosof, mütəfəkkir, rəssam, musiqişünas, xəttat, maarifçi, şair olmaqları ilə yanaşı, həm də qılınc və söz bahadırı kimi solmaz şöhrətlərilə tarixdə silinməz izlər qoymuşlar.

Tatar türkçüsü olan Yusif Akçura türk tarixinə yadların gözü ilə deyil, milli mövqedən yanaşılmasını istəyirdi. “ Çingiz xan ” adlı məqaləsində yazırdı: “ Osmanlı dövlətinə böyük zərəri toxunmuş olan Napaleona “böyük” diyoruz da, Teymurdan, Çingizdən bəhs etdiyimizdə olmayan sifətləri onlara isnad veririk. Böylə

düşünməyimizin nədəni onlara başqalarının gözüylə baxmağımızdan qaynaqlanmaqdadır ”. (47, s. 38)

Türk tarixinə həsr olunan əsərlərin meydana gəlməsi, milləti özünə tanıtmaq, türk millətinin keçmişdə buraxdığı səhvləri bir daha təkrarlamaması üçün dövrün yazıçıları səy göstərmiş və bunun uğrunda çalışmışlar. Bunun üçün də, ümumtürk mədəniyyəti yaratmaq və türkün türkə dost olduğunu göstərmək Hüseyn Cavid yaradıcılığı üçün də başlıca xüsusiyyət idi. Cavid doğru buyururdu ki, ortaq türk tarixi olmadığı üçün türk hökmdarlarına (Çingiz xan, Əmir Teymur, İldırım Bəyazid və b.) sahib çıxa bilmərik.

Əli bəy Hüseynzadə milli tarixin dərinliklərinə enərək yazırdı: “Türklüklə iftixar etdikləri halda türkün kim və kimlərdən ibarət bulunduğunu bilməyən nə qədər türk mühərrirlərimiz vardır. Türklərin kimlərdən ibarət bulunduğunu, nerədən nəşət etdiklərini, neçə şöbəyə ayrıldıqlarını, bu gün nerədə sakin olduqlarını və nə adlar altında yaşadıqlarını göstərməliyik. İçimizdə özbəklərin, qırğızların, başqırdların türk olduqlarını bilməyənlər də vardır...” (30, s.37)

Cavid hesab edirdi ki, artıq savaş meydanlarında olduğu kimi, mədəniyyətdə də qalib gəlməyin və bütün qonşu millətlərtək XX əsrə üzü ağ çıxmağın zamanıdır. Bunun üçün isə, türkün keçmiş şanlı və şərəfli mədəniyyətini-fəlsəfəsini öyrənib fəxr etməklə iş bitməz, türkün şərəfini və şanını XX əsrdə də qorumaq və yaşatmaq lazımdır. Cavidin fikrincə, türklər bu zaman milli mədəniyyətlə yanaşı, İslam mədəniyyətindən də yararlanmalıdır. Bu mənada, Cavidin yaradıcılığında Türk və İslam mədəniyyəti bir vəhdətdir. Bu baxımdan H.Cavid də Ə.Hüseynzadə, M.Hadi, Ə.Ağaoğlu kimi, İslamın yeniləşməyə zidd olmaması qənaətinə gəlmiş və hesab etmişdir ki, təbiətdə hər bir şey dəyişməkdə və inkişafdadır. İslam isə, heç vaxt dəyişilməyin və yeniləşməyin əleyhinə olmamışdır. Ona görə də Cavid Allahın dinini Yer üzərində yayan, təbliğ edən peyğəmbərlərə böyük qiymət vermişdir. .Cavidin yaradıcılığında milli mədəniyyət bir tamı təşkil edir. Bu tamın bir qolu İslam mədəniyyətidirsə, digəri Türk-Turan mədəniyyətidir.

Buna görə də hər bir xalqın öz tarixinə, ictimai-siyasi həyatına həmin xalqın milli dəyərləri, milli ölçüləri ilə qiymət verilməsini vacib sayırdı. Türk fatehlərinə

Avropanın verdiyi qiymətlə türklüyün, türkçülərin verdiyi dəyərdəki prinsipial fərqi də burada axtarmaq lazımdır.

Biz türk tarixini, türk böyüklərini qərəzli, türkə düşmən mənbələrdən deyil, türk dühasının məhsulu olan antik tarixi abidələrdən, türk qələmi ilə yazılmış əsərlərdən öyrənməli, özümüzü tanımalıyıq. Türklər özlərini tanıdıqda türk ruhunun nə qədər qüdrətli, nə qədər zəngin olduğunu, dünya xalqları arasında öz milli mənafelərini anlayacaqlar.

Türkiyədə yetişən ilk türkçülərdən olan Süleyman paşanın “Tarixi-aləm” əsərində irəli sürdüyü “ Türk tarixi türk tərəfindən yazılmalıdır” qənaəti də milli tarixə və milli tarixin görkəmli şəxsiyyətlərinə obyektiv dəyər vermək, onlara milli ölçülərlə yanaşmağın düzgünlüyünü zəruri sayırdı.

Bəliklə türkçülük ədəbiyyatı vahid, tam bir hərəkat olmuş, Azərbaycan və Türkiyə türklərinin ədəbiyyatlarında vahid bir proses kimi özünü göstərmişdir.

Turan idealını gerçəkləşdirmiş, türk fatehləri içində, ədəbiyyatda ən çox müraciət olunan obraz Əmir Teymur idi. Bu obraz yaxın tarixin ən canlı simalarından biri, Turan idealını gerçəkləşdirmiş, son türk fatehi kimi yazarların diqqətini özünə çəkirdi. Teymur həm də türk irqinin, türk əxlaqının ümumiləşdirilmiş obrazı kimi təsir bağışlayır. Hüseyn Cavidin “Topal Teymur” əsəri də yaradıcılığının kamil dövründə qələmə alınmışdır, ona görə də burada şairin yaradıcılığı üçün xarakterik olan xüsusiyyətlərin cəmləşdiyini, üzvi vəhdət təşkil etdiyini görürük. Həcminə görə yox, vəzninə, daxili siqlətinə, fəlsəfi-estetik tutumuna görə nəhəng əsərdir. Açıq hiss olunur ki, əsəri yazarkən müəllif tarixi hadisələri dərindən öyrənmişdir. Əmir Teymurun şəxsiyyət kimi təqdimində mübaliğəyə yer verməmiş və Teymurun daha mükəmməl obrazını yaratmağa müvəffəq olmuşdur. Hüseyn Cavid tərəfindən Teymur obrazı tarixin şərəfli səhifələrindən biri kimi, ağıllı, uzaqgörən, türk millətinin gələcəyini düşünən hökmdar obazı kimi işlənmişdir.

H.Cavidin ədəbi irsi elə bir zəngin xəzinədir ki, onu araşdırdıqca qədim türklərin soy-kökündə qərarlaşmış qəhrəmanlıq, igidlik əlamətləri qanına, canına hopmuş, onların mənəvi ruhlarının mayası olan yaşayış qayda-qanunları, həyat tərzi qayəsinə dərindən yaxınlaşırsan. Cavidin "Topal Teymur" əsəri türk xalqının böyük sərkərdəsi

Fateh Teymura həsr olunsa da, əsərdə yalnız Türküstanın deyil, bütövlükdə Turan aləminin uzaq qərinələrdən gələn alp-ərənlik ruhu çırpınır.

Maraqlıdır ki, Cavid Turan ideyasını Azərbaycanın Sovet Rusiyasının işğalından sonra daha əzmlə davam etdirmişdir. Çünki onun düşüncəsində Turandan başqa istənilən Vətən ideyası işğalçılığa və zorakılığa əsaslanırdı. Bu baxımdan Sovet Azərbaycanı dövründə milli mədəniyyəti, milli ruhu və onun bariz nümunəsi olan türkçülüyü-turançılığı beynəlmiləl-proletar mədəniyyətinə və müstəmləkəçiliyə qarşı müdafiə edənlər arasında H.Cavid xüsusilə fərqlənmişdir. Məhz türkçülüyə, o cümlədən Azərbaycan türkçlüyünə bağlılığın nəticəsi idi ki, Sovet Rusiyasının Azərbaycanı əsarət altında saxladığı dönəmdə də H.Cavid bu ideyalardan üz döndərmədi. Əksinə hər bir şeirində, dramında, poemasında onu yaşatmağa çalışdı.

Məhəmməd Əmin Rəsulzadə Hüseyn Cavidin yaradıcılığına xüsusi məhəbbətlə yanaşmışdır. Müəllif dramaturqun “Topal Teymur”, “Peyğəmbər”, “Iblis” və “Səyavuş” pyeslerinin təhlili fonunda onun yaradıcılığına xas olan bir ümumiliyi – müəllifin bu günün həqiqətini deyə bilmək üçün tarixin qoynuna sığınmasını doğru müşahidə etmişdir. Məhəmməd Əmin bəy sovet cəmiyyətində «sənətkarlarımızın hansı formalarda öz fikirlərini söyləmək imkanı tapdıqlarını» sübut üçün Cavidin əsərlərini nümunə göstərir. Cavidi müasir həyatın nəbzini tuta bilməməkdə təqsirləndirən sovet tənqidçilərindən fərqli olaraq o, müəllifin tarixi və bəşəri mövzulara müraciətini məqsədyönlü hesab edirdi. Ədib “Topal Teymur” pyesini türk tarixini səhnəyə gətirməklə “milliyyət” hissini təbliğ eləyən bir əsər kimi qiymətləndirirdi. Müəllifin fikrincə, ideyaca müasir olan əsərlərində dolayısı ilə “hürriyyət”, “türkçülük”, “yurdsevərlik” qayəsi təbliğ edilmişdir.

“Yeni Qafqaziyyə” jurnalının 1927-ci il nömrələrindən birində yazılırdı: “əsərdə idealizə olunan tip adi bir tip deyildir, türk tarixinə aid olan bir tipdir ki, milli türk tarixindən, bu tarixdəki qəhrəmanlıqdan xəbər verir”.

Böyük cahangir haqqında Cavidə qədər də dram əsərləri yazmışlar. Məsələn, Əbülhaq Hamid ilk dəfə Teymurun müsbət obrazını yaratmağa müvəffəq olmuşdur. Hamid Teymurun qan tökməyini zəmanəni düzəltmək və türklüyün xeyrinə dəyişmək üçün etdiyini vurğulayırdı. Azərbaycan romantizmində Əbdülhaq Hamidin Teymura,

türk fatehlərinə münasibəti eynən hakim olmuş, Əli bəy Hüseynzadə tərəfindən də Teymur obrazı türk tarixinin şərəf səhifələrindən biri kimi, ağıllı, uzaqgörən, türk millətinin gələcəyini düşünən bir hökmdar obrazı kimi işləmişdir.

1925-ci ildə yazılan “Topal Teymur” əsərində Cavid özündən öncəki türkçülərin mövqeyi ilə yaxından tanış olmuş və onlarla həmfikir olmuşdur. Belə ki, H.Cavid böyük imperiyaların dünyanı yenidən bölüşdürdüyü, müharibələrin hökm sürdüyü mürəkkəb bir dövrdə öz etiraz səsini duyurmaq üçün “Topal Teymur” tarixi dramını yazdı. Bütün dövrlər üçün aktual olan problemləri görkəmli, tarixi şəxsiyyətlərin dili ilə çatdırmağa çalışdı.

“Şərq tarixinin dolaşıq, mürəkkəb və uğursuz bir səhifəsinə müraciət edən Hüseyn Cavid seçdiyi hadisə və məsələlərin tarixi gerçəkliyinə sadiq qalmadan daha ziyadə həmin hadisələrdən bir bəhanə kimi faydalanmaq və öz fəlsəfi-estetik mülahizələrini əsaslandırmaq məqsədini izləmişdir”. (21, s.199)

Əsərdə Cavid Teymurun müharibəyə, əsir etdiyi dinc əhaliyə, düşmənə, sənətə, mədəniyyətə, qadına, türklüyə münasibətləri fonunda onun real tarixi şəxsiyyətini yaratmağa çalışmışdır. Bu münasibətlər Teymuru türk və cahan tarixinin görkəmli şəxsiyyətlərindən biri kimi təqdim etməyə müəllifə imkan vermişdir.

H.Cavid yaşadığı çətin tarixi şəraitə baxmayaraq, türk tarixindən rəğbətlə danışanlara “ pantürkist ” damğasının vurulduğu zamanda Əmir Teymurdan əsər yazmaq asan iş deyildi. Çətinlik daha çox onda idi ki, Əmir Teymurun qanlar tökdüyünü təsdiqləməklə yanaşı, onun qüdrətli şəxs olduğunu da göstərmək lazım idi. “Topal Teymur”a əsaslanıb Əmir Teymurun qüdrətindən söhbət açmaq Cavid sənətinin böyüklüyü idi."Topal Teymur" əsəri türk xalqının böyük sərkərdəsi fateh Teymura həsr olunsa da, əsərdə yalnız Türküstanın deyil, bütövlükdə Turan aləminin uzaq qərinələrdən gələn alp-ərənlik ruhu çırpınır.

Tahirə Məmmədovanın “ XX əsr Azərbaycan dramaturgiyasının poetikası ” kitabında qeyd etmişdir ki: “ Topal Teymur ” dramında hərəkətə təkan verən qəhrəmanın xarakterindəki əzəmət və ziddiyyətlərin ardıcıl açılışıdır. Burada süjet qarşı duran tərəflərin mübarizəsindən daha çox hərəkətə hər an stimul verən Teymurun münasibtləri üzərində qurulmuşdur;...Teymurun müharibəyə münasibəti,

Teymurun xalqa münasibəti;... Teymurun azğın hakimlərə münasibəti; Teymurun düşmənə münasibəti... və s”. ( 41, s.167-168 )

“Topal Teymur” əsərini yazarkən açıq hiss olunur ki, müəllif tarixi hadisələri dərindən öyrənmişdir, bəzi şəxsiyyət adlarını tarixdə olduğu kimi saxlamışdır. Mişkinaz Cavidin Cavid haqqındakı xatirələrindən birini xatırlamaq yerinə düşərdi: “Cavid bir dəfə dedi ki, “Topal Teymur” u, “Peyğəmbər” i yazarkən elə bil onlarla üzbəüz oturub söhbət etmişəm. Onlar mənə sanki öz təbiətləri haqqında danışmışlar. Bəzən onların bu və başqa səhv hərəkətlərini üzlərinə deyir, günahlandırır, nə üçün belə etdiklərini soruşurdum. Doğrudur, onlar da özlərini doğrultmaq üçün mənə cavablar verirdilər. Bəziləri məni qane edir, bəziləri yox”.(19, s.262)

Beş pərdədən ibarət, “Topal Teymur” tarixi dramında H.Cavid tarixə sadiq qalmağa çalışmışdır. Lakin, şəxsi tarixçisi “Teymurnamə” müəllifindən başlayaraq şərqşünas Vamberiyə qədər bütün tarixçilər onun müharibədə qaniçən və amansız, sülh vaxtında isə ağıllı, müdrik, qanunverici,ədalətli, elmin və sənətin hamisi kimi təsvir etmişlər. Lakin ədibə görə, Teymuru birtərəfli, ancaq qəddar, insan kəllələrindən qalalar tikdirən əliqanlı bir cahangir təsəvvür edənlər tarixi təhrif edənlərdir.

Bu qüdrətli cahangirin dünyaya ağalıq etmək siyasətinin, dövləti idarə etmək işindəki tədbirlərinin və bir sıra səciyyəvi cəhətləri əsərdə qələmə alınmışdır.Daha doğrusu, dramaturq despot kimi tanınan fatehin təbiətinə məxsus keyfiyyətləri ümumiləşdirməyə çalışmışdır.

Teymur – “Topal Teymur” pyesinin təkcə baş qəhrəmanı deyil, ideya-estetik mərkəzində dayanan bir obrazdır. Həmin obrazı birmənalı şəkildə qəddar imperator saymaq, yaxud əsərdəki bəzi ştrixlərə əsaslanaraq əsas məsələləri diqqıtdən kənarda qoymaq, Teymuru ancaq mənfi qiymtləndirmək bu obraza verilən qeyri-dəqiq və yalnış fikirdir.

Əsərdə Əmir Teymur hər şeyi son məqsədə-qələbəyə qurban verməyi bacaran bir hökmdar kimi təsvir olunur. Türk övladının tərəqqisi üçün əlindən gələni əsirgəməyən fateh, özünü “məğrurları əzmək üçün göndərilən Allah bəlası” hesab edir.

Əmir Teymur türk düşüncəsini yürütdüyü siyasətdə tətbiq edən fatehdir. Onun türk mədəniyyəti tarixindəki yerini Vamberi German dəqiq ifadə etmişdir: "Teymur dövri-səltənəti ilə Orta Asiya tarixində türklük dövrü hökmran olmuşdur. Zira Teymura qədər gəlib keçən Xarəzm hökmdarları nə qədər əsl türk irqindən olsalar da, bu xüsusdan xəbəri olmayıb – İran mədəniyyətinə pərəstiş edirdilər. Əmir Teymur Moğol – Çin aləmi üzərində türk qələbəsini təcəssüm... etdirib, türk ünsürünə... layiq və müstəhəq olduğu üstünlüyü verməyə çalışırdı.

... Məmləkətin rəsmi dili olaraq türk dili hökm sürmüşdü". (48, s.54)

Böyük türk xaqanı nə qədər paradoksal görünsə də millətin gələcəyini düşünür, alim və şairlərinə hörmət edir. Ən məğrur hökmdarları əzən, ən şücaətli qəhrəmanları qəhr edən Teymur dəyərli şair və ədiblər, alim və fazil şəxslərə qarşı da hörmət və məhəbbət bəsləyir. Millətin gələcəyi haqqında o, bir filosof kimi düşünür. Əslində o, bunu taxt-tacını və səltənətini daha da qüvvətli edə bilmək üçün edir: onun idarə etdiyi məmləkət "dünyada ən parlaq maarif və mədəniyyət ocağı, ən zəngin sənaye və ticarət mərkəzi olmalıdır. Cavid göstərməyə çalışırdı ki, Türk milləti Avropa millətlərindən fərqli olaraq bir dildə danışar, bir ürəyə sahib olar. Başqa sözlə, türklər ikidililiyi, ikiüzlülüyü bacarmaz. Ancaq düşmənə yalnız savaş meydanında qalib gəlməklə də iş bitmir. Ona görə də türklər müharibə meydanında olduğu kimi, mədəniyyət və elmdə də düşmənlərindən öndə olmalıdırlar. Cavid Türk hökmdarı Teymurun dilindən yazırdı: Əvət qoy düşmənlərimiz görsün ki, türk övladı yalnız basıb-kəsməkdən deyil, yaşamaq və yaratmaqdan da zövq alır. Yalnız yaxıb-yıxmaq deyil, yapmaq və yaratmaq da bilir...Bu yalnız mədəniyyətə doğru bir addım, gələcək üçün bir başlanğıcdır"(17, s.265) deyən Teymur onu da bilir ki, müharibəni mədəniyyətlə əvəz etmədikcə ürəkləri fəth edə bilməyəcəkdir.

Dramın elə ilk səhnələrindən də şahidi oluruq ki, Teymur insan gözəlliyini anlayan və qiymətləndirən rəhbərdir.Olqa ilə dialoqunda bunu aydın büruzə verən hökmdar digər səhnələrdə isə öz ədalətini əyani şəkildə göstərir. Vergini ödəyə bilməyən kəndliyə qarşı edilən haqsızlığa qəzəblənir, bununla da Teymurun bir kənd zəhmətkeşinin qeydinə qaldığının şahidi oluruq. Bu isə Teymuru adil bir hökmdar kimi xarakterizə etmək üçün yetərlidir:

“**Teymur.** (heyrət və şiddətlə). Nasıl, nasıl!? İxtiyar köylüyü qırbacla döydürmüş ha!.. Ah, qudurğan, şaşqın!.. O düşünmüyor ki, əhaliyi incidən bir hakim yavrusunu parçalayan bir heyvan qadar şüursuzdur. Zərər yoq, yarın məsələ aydınlaşır, bu söz doğru çıqarsa, sayğısız hərifə ən şiddətli cəza verilir. (Kəskin) Əvət, qırbacı qadar nüfuz və idarəsi olmayan bir hakim, hökumət namına ən çirkin və silinməz bir ləkədir”. (17, s. 258)

Tarixdə də Teymura münasibət bu barədə müsbət olmuşdur. O maarifi, mədəniyyəti, elmi və ticarəti hər zaman himayə etmişdir. Öz sarayında alimləri, şairləri, memarları toplamış, onların vasitəsilə mədəniyyətə yol açmışdır.Sülh vaxtında Teymurun qanun-qaydaya böyük əhəmiyyət verdiyi tarixçilər tərəfindən qeyd olunur.

Eyni zamanda Teymurun müharibə ehtirasını mənfi qiymətləndirmək səhv fikirdir.Çünki, bu onun mənsub olduğu xalqa xas xüsusiyyətlərdəndir. Əsərdə də Orxanın dilindən deyilən sözlər buna sübutdur: “Biz türklər çadır altında doğar, açıq səhralarda, qanlı müharibələrdə ölürüz. Müharibədə ölənlər evdə ölənlərdən sayca daha azdır. Bəncə mübarizəsiz bir ömür, ömür deyil... Biz türklərə qürur və nəş’ə verən bir şey varsa o da müharibə, o da qalibiyyətdir” .

Teymur müharibə cəngavəridir. Mənsub olduğu xalqın ictimai əxlaqı onun qanına yerimiş, fəaliyyətində təcəssüm etmişdir:

“**Olqa.** Bənim şətarətim böyük xaqanın qəzəbinə səbəb olur deyə əndişə ediyorum.

**Teymur.** Pəki, əndişə niçin?

**Olqa.** Çünki qəlbi hərb atəşilə alevlənən bir hökmdara qarşı gülümsünmək cəsarəti həddim deyil...

**Teymur.** İştə pək yanlış düşüncə... Müharibə hazırlığı Teymuru qəzəbləndirməz, bil’əkis bayram tədariki qadar xoşhal və məmnun edər”.( 17, s.256)

Teymurun müharibəyə bu cür münasibəti, müharibə hazırlığından özünün dediyi kimi, bayram tədarükü qədər məmnun olduğunu “xəstəlik” kimi qiymətləndirmək səhv fikirdir. Ona görə ki, müharibə ehtirasını H.Cavid ancaq fərdi bir xüsusiyyət kimi sırf Teymurun özünə aid etmir, mənsub olduğu xalqı da bu

baxımdan qiymətləndirirdi. Cücənin Teymuru yamsılayarkən onun dilindən deyilən sözləri xatırlayaq:

“Mən on iki yaşında ikən kəndimdə bir fərasət və böyüklük duymağa başladım. Mənimlə görüşənləri ciddi bir vüqar və hörmətlə qubul edərdim. On səkkiz yaşımda minicillik və avçılığa həvəs etdim. Vəqtimin çoxunu Quran oxumaqda, şahmat oynamaqda və at oynatmaqda keçirdim. Sonra Əmir Qazana yanaşdım, Hüseyn Kürd ilə savaşdım. İlyas Xocaya qoşdum, vəzirinlə pozuşdum. Oradan uzaqlaşdım, türkmənlərə əsir düşdüm. Sonra bir çox arkadaşla buluşdum. Blucistanla vuruşdum. Gah qalib gəldim, gah məğlub oldum. Ayaqdan bir yara aldım, iştə böylə ağsaq qaldım. Əvət mənəm yaralı arslan, mənəm Topal Qaplan". (17, s. 278)

Cavidin "Topal Teymur" əsərindəki mübariz ruh o dövrün türk məişətindən, onun qaynar həyatından doğmuşdur. Məlum həqiqətdir ki, qədim türk tayfaları döyüşkən nəsillər olub öz güzəranlarını, gün-dirriklərini hərb, savaş gücünə yaratmışlar. Dövrün ruhu, uzun müddət mübarizə meydanlarına davam gətirmək üçün bir çox fiziki təmrinlərin, iradi keyfiyyətlərin, güc-qüvvət püxtələşdirən savaşların aşılanmasını tələb edirdi. Cavid Teymur obrazının sadə təsvirində də həmin keyfiyyətləri elə bir ustalıqla təsvir edir ki, oxucu dərhal "bu orta boylu, qəvi bünyəli, omuzları geniş, barmaqları yuvarlaq, qılçaları uzun, əzəlatı ğayət sağlam" şəxsiyyətdə daxili səbat, böyük iradi qüvvə hiss edilir. Türk sərkərdəsinin qanlı, amansız qovğa və döyüşlərdən hər dəfə qalibiyyətlə çıxmasının başlıca səbəblərindən biri də türklərin hələ uşaqkən dava, savaş meydanlarında bərkiməsindən irəli gəlir.

Teymurun şəxsiyyəti son dərəcə ziddiyyətlidir. Həm zülmkarlığı, həm də müdrikliyi ilə qeyri adidir. Tarixin yaddaşında da, ona həsr olunan əsərlərdə də, haqqında deyilən bütün müəmmaları özündə ehtiva etdirir. Bu təzadlı əlamətləri sayəsində də qeyri-adi müdrik bir hökmdar kimi tarixin və ədəbiyyatın yaddaşında dərin iz buraxmışdır.

Hüseyn Cavidin də Teymur şəxsiyyətinə müraciəti bir neçə baxımdan ziddiyyətli olmuşdur. Birincisi, milli təəssübkeş kimi Şərqin, xüsusən də Türkün görkəmli tarixi şəxsiyyəti olduğu üçün. İkincisi, belə bir nəhəng Türkün yol verdiyi tarixi nöqsanı – milli münaqişənin acı nticələrini göstərməklə yeni nəslə öyüd vermək

üçün. Üçüncüsü, mənsub olduğu millətini özünüdərkə səsləmək üçün. Lakin konkret olaraq o zaman H.Cavid üçün də xalq və hökmdar problemi ön planda olmuşdur. Müdrik siyasətçi din, elm və incəsənət hamisi, yolunu azanlara qarşı amansız olan Teymur türk xalqlarına mənsub olduğu üçün onun böyüklüyü də, nöqsanları da ədib üçün "doğma" idi. Cavidin müdrik vaxtında gəldiyi qənaətin – ümumbəşəri məhəbbət ideyasının təbliği üçün də bu şəxsiyyətin taleyi ibrətamizdir. İldırım Bəyazidlə müqayisədə olduqca siyasətcil, məğrur və ədalətli olan Teymur apardığı müharibələr, öz türk qardaşlarını tələf etməsi nəticəsində ayılır.

Tarixdən bəllidir ki, Teymur hökmdar olmaqla yanaşı, həm də tədbirli dövlət xadimi olmuşdur. Hökmdar olmasına baxmayaraq ətrafındakılara qarşı son dərəcədə qayğıkeşdir, tökdüyü qana qarşı laqeyddir, amma ölüm, qan istəmir, hiyləgərdir, tədbirlidir amma eyni zamanda da səmimidir. Bildiyimiz kimi, Əmir Teymur alimləri, şairləri himayə edər, tez-tez onların məclislərində iştirak edər və onların fikirlərinə də münasibətsiz qalmazdı. Fəth etdiyi ölkələrin mədəniyyətinə böyük dəyər vermiş, elm adamlarını mükafatsız qoymamışdır. Hər zaman onların qayğısına qalmağa çalışmışdır. Şair Kirmani ilə münasibəti buna misal ola bilər. Belə ki, Teymurun Şair Kirmani ilə arasındakı dialoqlar da havadan alınmamışdır. Tarixi faktlar da göstərir ki, Teymur Kirmaninin həqiqət söyləməsinə heç vaxt qəzəblənməmişdir. Macar müəllifi Vamberi Germanın da yazdığına görə, bir şair Teymur haqqında kəskin bir həcv yazmışdır, buna baxmayaraq Teymur tərəfindən heç bir qəzəbə düçar olmamış, əksinə mükafatlandırılmışdır.

Teymur pyesin birinci pərdəsində saray şairi Kirmani ilə üz-üzə gəlir. Ümumiyyətlə sarayda təsvir edilən şəxslər içərisində şair Kirmani yeganə şəxslərdəndir ki, onun hərəkətlərərini müzakirə edir, hökmdarla mübahisəyə girirdi. Şair Kirmani Teymurun səhvlərini çəkinmədən üzünə söylüyə bilən, onu cəsarətlə tənqid edən mütəfəkkir olmuşdur. Əsərdə Şair Kirmani ilə Teymurun dialoqları buna sübutdur. Divan bəyinin sözləri də bunları təsdiq edir:

"**Divanbəyi.** Şair Kirmani böyük ruhişinasdır. O, pək gözəl biliyor ki, Teymur hökümətləri yıqar, məmləkətləri yaqar; ən məğrur hökmdarları əzər, ən şücaətli qəhrəmanları qəhr edər, fəqət dəyərli şair və ədiblərə, alim və fazil şəxslərə qarşı da o

nisbətdə hörmət və məhəbbət bəslər...”.(17, s.265)

Eyni zamanda Şair Kirmani “ Teymurnamə ” müəllifidir. O, qan tökülməyin əleyhinə olsa da, Teymurun şəxsiyyətinə qarşı heç bir zaman ikrah hissi duymamışdır. Hökmdarın faciəsini, onun keçirdiyi hiss və duyğuları dərindən duymuşdur.

Teymur dünyanın yarısını fəth etməsinə rəğmən, qurultaysız, məsləhətsiz qərar qəbul etməzdi. Cavid Teymurun sarsılmaz və qüdrətli idarəçiliyində məhz bu prinsiplərin əsas olduğunu və Teymurun nədən belə böyük fatehə çevrilməsinin sirlərini açıb göstərmişdir.

H.Cavid, cəsarəti, hünəri qarşısında baş əydiyi, səcdə etdiyi, sevərək yaratdığı böyük Əmir Teymurun yenilməz bir şəxsiyyət kimi formalaşmasında fiziki tərbiyə amillərinin, o cümlədən, mahir minicillik qabiliyyəti, ox-yay süzdürməsi, qılınc çalması, qurşaq tutması, habelə, səriştəli bir səyyad kimi ovçuluqda ad qazanması ilə yanaşı, gözəl şahmat bacarığını və digər keyfiyyətlərini də qələmə almağı unutmur.

Cavidin bu əsəri yazmaqda əsas məqsədi türkçülük ideyalarının möhkəmlənməsi, türkün türkdən başqa dostunun olmadığını göstərmək idi.Əks təqdirdə əsərdə də olduğu kimi olacaqların faciəsini əks etdirmək idi.Tarixdə ilk dəfə iki güclü türk bir-birinə savaş açdı. Bu səhvi sonrakı nəsillər də davam etdirdilər: Uzun Həsən – Sultan Mehmet Fatih, Şah İsmayıl Xətai – Sultan Səlim. Bütün bu savaşlar, çəkişmələr türk millətinin bütövlüyünə vurulan zərbə şəklində dəyərləndirilmişdir.“Topal Teymur” əsərindəki səhnələr də bu mülahizələri təsdiq etməkdədir.

Şərqin fateh, hökmdar kimi tanıtdırdığı Əmir Teymurla türk sultanı İldırım Bəyazid arasında yaranmış gərgin ixtilaflar və hər iki hökmdarın cahangirlik ehtirasından doğan qanlı çəkişmələr Hüseyn Cavidi yalnız tarixin dolaşıq və faciəli hadisələri kimi cəlb etməmişdir. Dramda Əmir Teymurun tarixi fəthləri haqqında ətraflı məlumat verilməmişdir.Lakin biz bariz bir şəkildə əsərdə Teymurun İldırıma qarşı üstün olduğunun şahidi oluruq.Əlbəttə ki, bu səbəbsiz deyildi.Türkçülüklə bağlı axınların bir çoxunda Teymur imtiyazlı yerdə durur.Bu imtiyaz isə Teymurun Çin səddindən Mərmərə dənizinə, Dəşti Qıpçaqdan Hind dənizinə qədər bütün Türkləri

birləşdirən son Turan hökmdarı olmasından irəli gəlirdi.

Əslində Əmir Teymur Yıldırım Bəyazidlə müharibə etmək, özünə qüdrətli türk düşməni qazanmaq, onun ərazisini tutmaq fikrində olmur. O, Bursa hökmdarından düşmənləri Sultan Əhməd Cəlairi və Qara .Yusifin təhvil verilməsini və onları müdafiə etməməsini istəyir: "Teymur hələ baharda Bəyazidə məktub göndərib tələb etmişdi ki, Qara Yusifi və Teymur onların şəhərlərini, ölkələrini alanda Teymurdan sultanın yanına qaçmış əmirləri ona versin. Teymur bilirdi ki, sultanın yanındakı bu qaçqınlar özləri üçün dilənçi payı əldə edib nifaq salır, sultanın Teymura olan qəzəbini coşdururdular. Teymur başa düşürdü: nə qədər ki, bu əmirlər osmanlıların arasında daldalanırlar, Bəyazid onların torpaqlarını və özlərini idarə etməyə ixtiyarı çatdığını güman edirdi, əmirləri ona versəydi, bununla da Teymurun nəinki qaçqınlara, həm də onların torpaqlarına hökmü çatdığını təsdiq etmiş olardı" (29; s.356 ). Əvəzində isə rədd cavabı ilə birlikdə bir türk sultanına yaraşmayan təhqir məktubu alır. Tarixi həqiqətlərə də əsaslansaq görərik ki, Teymurun Osmanlı torpaqlarına girmək kimi bir fikri yox idi. Onun planları Şərqə doğru istiqamətlənmişdir. Cavid bu iki türk hökmdarının toqquşmasına səbəb kimi İldırım Bəyazidin naşı siyasətini, yazdığı təhqirlə dolu məktubu göstərir və müharibə artıq iki böyük türk hökmdarının şəxsi ədavətinə çevrilir. Bunun nəticəsində isə iki güclü "türk qövmü" əziyyət və ziyan çəkir.

"...zəfərdən sonra Bəyazid büsbütün qürura qapılmış və sərxoşluğa meyilli olmuşdur. Bu üzdən Teymurla arasındakı bəzi anlaşılmazlıqları barışıq və yaxşı niyyətlərlə yoluna qoymamışlar, məktubunda Teymuru müharibəyə sövq edirdi". (49; 54)

Mənbələrdən birində də göstərildiyi kimi: " Bəyazid hisslərinə qapılmasaydı, qürurunu yenə bilsəydi və tale onu bəzi uğursuzluq və çətinliklərlə qarşılaşdırılmasaydı Əmir Teymurun da üzərində qələbə çalmaq şərəfi ona nəsib olacaqdı".

Maraqlısı budur ki, türk tarixçiləri də İldırım Bəyazidin məğlubiyyətindən çox, iki qardaş xalqın düşmən cəbhələrdə vuruşmasına təəssüflənmişlər: "Yıldırım əsgərlərini ruhlandırmaq üçün nitq söylədi. Fəqət Teymurun ordusu da müsəlman idi,

üstəlik türkdü. Osmanlı ordusu ilə eyni dindən, eyni məzhəbdən idi. Eyni dildə danışırdılar. Bu şərtlər altında Osmanlı əsgərindən Səlibçilərə qarşı göstərdiyi fədakarlığa ümid etmək olmazdı" (49; 34 )

Türk aləminin tənəzzülünün ən əsas səbəblərindən birini müəllif türk birliyinin olmamasında, hökmdarların bir-birinin qanını axıtmasında görür. Həqiqətən də, türklərin son üç-dörd əsrdəki siyasi tənəzzülünün əsas səbəbini türk fatehləri arasındakı düşmənçilikdə, türkün türkə, islamın islama düşmən çıxmasında axtarmaq lazım gəlir.

Tarix boyu türklərin qarşıdurmasını öz əsərlərində yazıçılar təsvir etmişlər. Məhəmməd Füzuli "Bəngü Badə" əsərində iki böyük türkün, Şah İsmayıl Xətai və Sultan Səlimin bir-birinə qarşı düşmənçiliyinin Türk və İslam dünyasına nə qədər ağır zərbə vurduğunu qeyd etmişdir. Ümumiyyətlə Azərbaycan ədəbiyyatında türk xalqlarının qarşıdurmasını əks etdirən ilk əsər "Kitabi-Dədə-Qorqud" olmuşdur. Dastanın tədqiqatçılarından olan Tofiq Hacıyev yazırdı: "Dönə-dönə söyləndiyi kimi, türkün öhdəsindən türk gələr, Türk öz rəqibi olan həmsoyu ilə qəddar düşməni kimi rəftar edir. Üz-üzə duran iki türkün mübahisəsi bir-birini məhv etməklə qurtarır. Başqa soydan düşmənlə razılığa gəlir, çünki rəqibdən biri qeyri-türkdür və razılığa gələn də qeyri-türk tərəf olur. Düşmən olan iki türk barışmır, çünki ikisi də türkdür, heç biri geri çəkilmir".(31, s. 53)

Dram əsərində bir-birinə zidd olan iki hökmdar surəti ilə bərabər, eyni təzadı təşkil edən iki vəzir sürəti də verilmişdir. Onlardan biri Əli Paşadır. Bəyazidin faciəsində cüzi də olsa Əli Paşanın da qatqısı vardır:

"**Əlipaşa.** (ətrafa). Hərif gerçəkdən kor. Az qalır ki, məktubu gözlərinə yapışdırsın. (Yıldırıma). İnsaf eyi bir şeydir, əfəndim, gör bizdən kimi istiyor. Hiç Qaraqoyunlu əmiri kibi xeyirxah bir şəxs ona təslim edilirmi? Halbuki Qara Yusif, yaxud Sultan Əhməd Cəlayir bizim ən yaqın dostlarımızdır".(17, s. 276)

Lakin Əli Paşanın əksinə olaraq Şeyx Buxari sultanın gözünü açmağa çalışanlardandır. Cavid Şeyx Buxarinin dili ilə Bəyazidin faciəvi sonluğuna səbəb olan qürurunu, nəsihətlərə əməl etmədən atdığı addımları böyük tarixi səhvlərə gətirib çıxartdığını yüksək bədiiliklə təsvir etmişdir. Lakin Şeyx Buxari nə qədər

cəhd edirsə də gözü həqiqəti görməyən "kor" düşüncəli hökmdar müdrik adamın sözlərini qulaq ardına vurur:

"**Şeyx Buxari.** Zənnimcə qəzəb və hiddət əfəndimizi yanlış mühakimələrə sevq ediyor. Teymur da sizin qadar qəhrəman, sizin qadar cəsur və sarsılmaz bir hökmdar... Boş yerə türk evladının qanını dökdürməyin və ətrafınızı saran düşmanları kəndi fəlakətinizə güldürməyin.

**Yıldırım.** Xayır, mirim! Bən şimdiyə qadar sənin acı nəsihətlərini dinlədim. Əfsus ki, bundan sonra dinləmiyəcəyim, çünki şu məktubun məalı təhqirlərin ən acısıdır.

**Şeyx Buxari.** Əvət, biliyorum acıdır, hətta bənim sözlərim ondan da acıdır. Fəqət onunla çarpışacağına, kəndi nəfsinlə mübarizə et. Cəsarət ediyorum, mümkünsə rəqqasələrə uyma! Serbistan prensesi nüfuzuna qapılma! Və sərxoş vəzirlərə alət olma!".

Ikinci vəzir isə Teymurun sarayında olan Divanbəyidir. Divanbəyi ağıllı siyasətçi və dövlət xadimidir. Bunu Teymurla dialoqlarında açıq-aşkar görə bilərik:

**Divanbəyi.** Fəqət bən bil'əkis, Yıldırım məsələsinə əsla tərəfdar olmaq istəməm. Çünki hər ikiniz Turan aləminin birər qütbüsünüz. Şu iki qütb bir-birilə çarpışırsa, ortada fəlakətli bir uçurum açılmış olur. Və bu nifaqdan istifadə edərək ətrafı saran əcnəbi devlətlər türk dünyasına saldırmağa fürsət bulur. Bir də ordumuz bütün cihanı saracaq deyil a... Alınan ölkələri haqqilə idarə etsək daha böyük müvəffəqiyyətdir. (17, s. 266)

Burada biri digəri ilə bağlı olan iki məsələ diqqəti cəlb edir. Birincisi, Teymurun ətrafına əsasən onunla eyni fikirdə olan adamlar, İldırım Bəyazidin də ətrafına eynən onun fikirlərini dəstəkləyənlər toplanmışdır.

Topal Teymur və İldırım Bəyazid savaşına, həmin dövrün tarixi və coğrafi mövqeyinə nəzər yetirdikdə, belə bir həqiqət aydınlaşır ki, Şərqdə Topal Teymur, Qərbdə isə İldırım Bəyazid hakim mövqedə idi. Şərqdə Topal Teymurun, Qərbdə isə İldırım Bəyazidin sözü dinlənilərdi, qılıncı kəsərli idi. Hətta Bəyazidin ismi tarixə "xaçlıların qorxulu röyası" olaraq düşmüşdür. Sırf buna görə də Bəyazid qüruruna yenik düşür, özünü "hakimi mütləq" görən Teymuru rəqib olaraq görmək istəmir:

"**Yıldırım.** Bən üzərimə gələn qocaman Səlib ordularını qəhr etdim. Fransa və Almaniya cəngavərlərini püskürtdüm. Lehistan, Avstriya və Italiya əskərlərini bir hücumda əzdim. Hətta qorqusuz Jan kibi məşhur bir qəhrəmanı belə hiçə saydım. Şimdi Teymur kibi bir sərsərimi bəni qorqutacaq? Ah, kor olsun fələyin gözləri. Gör kimlər bana meydan oquyor".(17, s.288)

Dil və din qardaşlarının münaqişəsinə səbəb olan bir çox amillərdən biri də Osmanlı imperiyasının Qərbdəki zəfərləri idi. Bu zəfərlərdən narahat olan Avropa dövlətləri Əmir Teymurun Şərqi ələ keçirdikdən sonra onlara da sıranın gəlməyindən, güclü türk dövlətinin yaranmasından qorxurdular. Buna görə də hər iki türk dövlətindən onu digərindən qorumaq üçün kömək istəyir, hiyləgərliklə iki böyük dövləti bir-birinə qarşı qoyur və ya onun dövlətinin qüvvətli olduğunu söyləyərək ona sığındığını dilə gətirirdi. Beləliklə də, hər iki tərəfə də tələ qururdular. Türkü türkə əzdirmək yadellilərin başlıca amalı idi. Nəticə olaraq da Qərb dövlətləri öz məqsədlərinə nail olmuşdular.

Teymurun yürüşlərində əsas məqsədi "dilləri başqa ürəkləri daha başqa" olan avropalılar qarşısında yenilməz bir türk dövləti yaratmaqdır. Bu siyasətə mane olan türk hökmdarlarının da üstünə qoşun yeritməkdən çəkinmir. Evləndiyi serb qızının təsirilə yabançı təsirlərə uyaraq məmləkətinin qapısını türk düşmənlərinin üzünə açan İldırımın sadəlövhlüyü və xeyirxahlığı əslində xalqını daha böyük fəlakətlərə sürükləyir. Təsadüfi deyil ki, Teymur onun üzərinə hücuma keçən zaman İldırımın əsas müdafiəçiləri serblər və rumlar olur.

Bəyazid və Teymur arasındakı savaşın mahiyyətində zəfər enerjisini az qala heçə endirən bir məqam da odur ki, hər iki tərəf Ankara savaşının cihad olmadığını yaxşı anlayırdı. Qarşı-qarşıya gəlmiş hər iki tərəfin müsəlman türklərdən ibarət olması onun müqəddəs müharibə müstəvisinə keçirilməsini əngəlləmişdi. Osmanlıların türk və müsəlmanlardan ibarət olmasını Teymur daha yaxşı dərk etmişdi. Bəzi mənbələrə görə,Teymurun İldırıma ünvanladığı bir ismarıcda Teymur İldırımı öz dindaşlarına, eyni zamanda bir qövmdən olan qardaşlarına qarşı müharibə etdiyinindən onu təqsirləndirir.

"H.Cavidin bədii həllinə və təhlilinə geniş yer verdiyi və xüsusi diqqət yetirdiyi

əhəmiyyətli problemlərdən biri də "dünya ağalığı" ideyasının kəskin tənqidi və həmin ideyanın törətdiyi fəlakət və məhrumiyyətlərin təsviridir. Dramda bu fikir, İldırım Bəyazidlə Teymur arasında baş verən mənasız çəkişmələrin iki xalqın həyatında əmələ gətirdiyi faciənin nəticələri ilə əsaslandırılaraq ümumiləşdirilir və bütünlükdə qanlı istilalara, soyğunçu müharibələrə son qoymaq, xalqları hərbin fəlakətlərindən qurtarmaq arzusu şəklində irəli sürülür".(21, s.209)

"Topal Teymur" dramında məqsədinə nail olmuş H.Cavid əslində hər iki qüdrətli cahangirin daha çox xudbinliyin, şöhrətpərəstliyin əsiri olduğunu aça bilmişdir. Belə ki, tarixi Sivas döyüşü heç də Teymurun Bəyazid üzərində qələbəsi yox, hər iki türk ordusunun fəlakəti, qardaş qırğını ilə nəticələnən bir hadisə idi.

Ümumiyyətlə, tarix boyu Əmir Teymur ziddiyyətli şəxsiyyət kimi təqib olunub. Onun əməlləri – xeyirxah və zülmkarlığı tərəzinin gözündə heç də nizamlı qərarda görülməyib. Onun türkçülük tarixindəki xidmətlərini saymaqla bitməz. Saray yazışmaları türk dilində olmalı, saray əsgərləri türkcə salamlaşmalı, saray şairləri türkcə yazmalı və s. və s. Böyük turançı Cavid, böyük türkçü Cavid bunları bildiyindən Əmir Teymurun müsbət xarakterlərini daha qabarıq vermişdir.

Cavid  Bəyazid və Teymurun onlara xas davranışlarını, xasiyyətlərini, dövləti idarə şəkillərini, saraylarını canlı lövhələrlə təsvir etmişdir.Şair, İldırım Bəyazid və Teymurun düşmənçiliyinə səbəb olan şeyin onların qürur və təkəbbüründən qaynaqlandığını göstərirdi. Əsərin sonunda Cavid İldırım Bəyazidin dili ilə qardaş qanını tökən döyüşlərin heç bir xeyir gətirmədiyini əksinə "türk qövmü" nü geri çəkdiyini izah edir və əsərin bu qismi ilə Turana öz mesajını çatdırırdı. Iki böyük türk hökmdarının boş qüruru və təkəbbürü üstündə bir-birini gücdən salması üzərində qurulmuş bu dram, əslində türk etnosunun faciəsi kimi mənalandırıla bilər. Məhz bu faciəni təsvir etməklə, Cavid, türkün indiki nəsillərində bir katarsis, birləşməyə meyl aşılamaq istəyir və buna nail olur.

Dünya fatehi Teymur özünün ən böyük xidmətini türk xalqlarının birləşdirilməsində və qüdrətli bir türk imperiyasının yaradılmasında görür. Əmir Teymurdan sonra heç bir türk sərkərdəsi Turan haqqında düşünmədi – öz aralarında vuruşmağa başları qarışdı. Düzdür, bu vuruşun əsasını Əmir Teymur özü qoymuşdu,

ancaq ona haqq qazandırmaq olardı – o, Turanı birləşdirmişdi.

Cavid XX yüzildə Turan ideyasını əsərlərində yaşadan böyük Türk aydınlarımızdan biridir. Onun yaradıcılığında Türk dünyasının sütunları sayıla biləcək Türk tarixi, Türk fəlsəfəsi, Türk dili və Turan ideyası bir bütündür.

Beləliklə, böyük ədib güclü türk fatehini öz əsərinə gətirməklə Türkçülüyü milli ideal kimi təbliğ edir, onun tarixi mövqelərini möhkəmləndirirdi.

# II FƏSİL

## “TopalTeymur” əsərində tarixi şəxsiyyətlər və onların bədii inikası tarixilik və müasirlik fonunda

Hüseyn Cavid Şərq xalqları tarixinin mühüm məqamlarını, görkəmli dövlət xadimlərini, hökmdarlarını, ədəbi şəxsiyyətlərini tədqiq edib öz əsərlərinə gətirən tarixi dramların müəllifidir. Tarixi həqiqətləri, hadisələrin baş verdiyi zaman və məkanı dərindən araşdırmaq tarixçinin işidirsə, ədəbiyyatçı bu tarixi hadisələrə öz təfəkkür və dünyagörüşü çərçivəsində yanaşır, tarixi hadisələrə zamanın gözü ilə baxır. Ədib seçdiyi tarixi şəxsiyyəti istədiyi kimi yaratmaq və ideallaşdırmaqda tam sərbəstdir. Cavid tarixdən bəhrələndiyi qəhrəmanların dili ilə yaşadığı dövrə münasibətini dolayısı yollarla da olsa bildirmişdir.

Romantizmin tarixi göstərir ki, onun ən görkəmli nümayəndələri tez-tez tarixə müraciət etmiş, ən böyük şəxsiyyətlərin həyatını, qeyri-adi hadisələri, mifoloji və dini süjetləri bədii tədqiqata cəlb etmişlər. Bu cəhətdən H.Cavidin yaradıcılığı çox mühüm ideya-estetik xüsusiyyətlərə malikdir.

Tarixi həqiqətləri bədiiliklə təcəssüm etdirmiş Cavid əfəndi, müasirliyin tələblərinə də cavab vermişdir: “ Tarixi şəxsiyyətlərin bədii obrazının sənət dili ilə yenidən canlandırılması keçmiş epoxanın açılmamış “sirlər”inin üzə çıxarılmasına, tarixi dövr haqqında müasir oxucunun bilik və məlumat dairəsinin genişlənməsinə, milli yaddaşın möhkəmlənməsinə ciddi təkan verir. Tarixi şəxsiyyətlər xalqın milli tarixi simasını müəyyənləşdirir və bu mənada da onların həyat və fəaliyyətinin öyrənilməsi zəruridir”. (45, s.204)

Cavidin tarixi mövzuları öz romantik təbiətinə və inikas üsuluna görə fərqli və çeşidli olmaqla yanaşı, başlıca vahid estetik idealı da həmişə öncüldür. Çağdaş mövzulu əsərlərində olduğu kimi,tarixi pyeslərində tanrısı gözəllik və sevgi olan sənətkar insana məhəbbət motivini həmişə yaşatmış, insanların da bu sevgini yaşatması uğrunda qələmi ilə mübarizə aparmışdır.Onun tarixi mövzuları bəşəri ideyalar daşısa da,mövzu seçimi baxımından milli və regional olub,daha çox

Şərq,konkret olaraq İslam-Türk tarixini,onun məşhur oğullarının tarixini ehtiva edir. Tarixə və məşhur tarixi şəxsiyyətlərə sənətkarın münasibəti birmənalı olmamışdır. O,məşhur xaqanları,qüdrətli sərkərdələri əks etdirərkən onların xarakterindəki qüvvətli tərəfləri qabarıq göstərməklə yanaşı, çatışmazlıqlarını da vurğulamış,öz qayəsini obrazların münasibətlərindən doğan nəticədə ifadə etmişdir.

Hüseyn Cavidin tarixə, "tarix yaradan şəxsiyyətlərə" münasibəti öz mayasını hələ gəncliyindən formalaşan milli hislərin oyanışından tutmuşdur. O, tarixi mövzulara müraciət etməzdən öncə çağdaş mövzularında da yeri gəldikcə məşhur dünya cahangirlərinə öz münasibətini bildirmişdir.

"nə buldular İsgəndərlər, Çingizlər!?

Qanlar töküb, canlar yaxıb getdilər!".(54)

"Dramaturgiyada tarixilik onun yalnız tarixi mövzuda yazılmasından asılı olmadığı kimi, müasirlik də yarandığı dövrün hadisələrinin hansı səviyyədə təcəssümü ilə ölçülmür. Himalay Qasımovun qeyd etdiyi kimi: "Tarixilik tarixin materialında deyil, sənətkarın müasiri olduğu tarixi bədii üsullarla nə dərəcədə dəqiq təsvir və təcəssüm etdirməsindədir". (22, s.276) Müasirlik sənətkarın yaşadığı dövrün özünü tarix kimi təsvir və təcəssüm imkanıdır. Dramaturgiyada tarixilik milli yaddaşın meyarıdır. Fikrimizcə, ədəbiyyat dünənlə sabah arasındakı məsafəni tarixilik və müasirlik arasındakı fəzada qət edir. Müasirlik əslində sabah üçün yaradılmış tarixdir; bu günün tarixidir. H.Cavid üçün Ömər Xəyyam, Əmir Teymur, Peyğəmbər məhz XX əsrin mürəkkəb hadisələrinə yuxarıdan, zirvədən nəzər salmaq üçün lazım idi". (39)

Y.Qarayevin deyimi ilə, "Cavidin əsərləri bəşər və dünya tarixinə çəkilən illüstrasiyalardır. Cavid – planeti görən və planetdəki qütblərdən görünən sənətkardır".(20)

"Onun mövzuları daha artıq tarixdən, Azərbaycanın ən dərin genetik tellərlə bağlı olduğu ümumşərq həyatından gəlirdi. Və kimlərinsə görməməsindən, danmasından asılı olmayaraq bu əsərlərin hər birində güclü müasirlik vardı".kitR.176

Xalqın tarixi keçmişini, əxlaqi-mənəvi təkamülünü, azadlıq və mübarizə meyllərini, milli ruhunu və psixologiyasını təsvir etməsini tarixi dramların əsas

aparıcı xətti kimi qəbul etmək bu janrda yazılmış əsərlərin ictimai-idraki əhəmiyyətinin, bədii-estetik dəyərinin, ictimai mahiyyətinin tam, bütün təfərrüatı ilə açılması demək deyildir. Tarixi dramlarda müasirlik estetik prinsip kimi daim aparıcı mövqedə dayanmış, bu mövzuda yazıb yaradan sənətkarlar öz yaradıcılıqlarında müasirlik prinsipinə əməl etmişlər.

Ədəbi bir ifadə ilə desək ədəbiyyat bizə tarixin söyləmədiklərini söylər. Daha açıq bir ifadə ilə tarix ədəbiyyatın ən çox faydalandığı disiplinlərdən biridir. Yazar tarixdən hər hansı bir zamanı, hadisəni, ya da qəhrəmanı əsərində canlandıraraq tarixi hadisələrə öz baxış açısı ilə yenidən həyat verər. Biz tarixi mövzuya "Topal Teymur" əsəri üzərindən gedərək, əsəri qələmə alan Hüseyn Cavidin tarixi anlayışını və əsərin mövzusu olan dönəmə baxışını dəyərləndirəcəyik.

Cavid hər hansı tarixi şəxsiyyətin bədii obrazını yaradarkən bütünlükdə onun həyatını əks etdirən məlumatlardan istifadə etmir. Elə faktları seçir ki, onun estetik idealına cavab verə bilsin.

Tarixi mövzunun müasirliyin xidmətinə cəlb edilməsi H.Cavidin "Topal Teymur" pyesi üçün çox səciyyəvidir. Əsər, 1926-cı ildə çap edilmiş və tamaşaya qoyulmuşdur. Professor Timurçin Əfəndiyevin qənaətinə görə: "20-ci illərin əvvəllərində Cavidin tarixi mövzuya müraciət etməsi yaradıcılıq metodu ilə əlaqədar idi. Yeni ictimai gerçəkliyi romantizmin tələbləri əsasında təsvir etməkdə çətinlik çəkən Cavid tarixi hadisələri, böyük şəxsiyyətlərin təsvirinə meyl edir və öz fikirlərini onların vasitəsilə ifadə etməyə çalışırdı. O vaxtkı tənqid bunu həyatdan uzaqlaşdırmaq adlandırsa da, obyektiv həqiqət bundan ibarət idi ki, Cavid tarixə münasibətdə müasir fikirləri ilə ifadə etməyə çalışırdı. "Topal Teymur" pyesi də öz ideya – bədii məndəricəsi ilə bu məqsədə xidmət edirdi" (23, s.61-62)

"Topal Teymur" pyesində Cavidin əvvəlki əsərləri üçün səciyyəvi olan ideya və fikirlər davam etdirilir.

Cavid böyük imperiyaların dünyanı yenidən bölüşdürdüyü mürəkkəb bir dövrdə müharibələrin insanları, bəşəriyyəti fəlakətə sürüklədiyini göstərmək və bütün bunlara öz etiraz səsini ucaltmaq üçün "Topal Teymur" dramını yazdı.

Bu dramı yaradarkən böyük sənətkar ilk öncə tarixi dövrün ruhunu düzgün əks

etdirməyə çalışmışdır. Tarixi məlumatlara və şəxsiyyətlərə həssaslıqla yanaşan ədib, hadisələrin inkişafında təxəyyülün məhsuluna da yer vermiş, yüksək bədiiliyə nail olmuşdur.

"...mövzu istər müasir gerçəklikdən götürülsün, istərsə də tarixi hadisə və şəxsiyyətdən bəhs etsin, müəllif eyni ideya-bədii məqsəd izləyir. Əsas olan münasibətin, mövqeyin müasirliyi və tarixiliyidir". (24, s.41)

Əmir Teymur haqqında yazılmış tarixi əsərlər bu böyük şəxsiyyətin mükəmməl obrazını hələ XIX-XX əsrlərdən tanıtmışdı. Teymur tarixdə "hərb allahı" kimi deyil, dünyanı idarə etməyə qadir hökmdar kimi də özünə möhkəm yer tutmuşdu. H.Cavid mənsub olduğu millətin tarixini gözəl bilən, eyni zamanda onunla fəxr edən bir sənətkar kimi mövcud təsəvvürlərə qarşı çıxa, onlarla hesablaşmaya bilməzdi. "Topal Teymur" əsəri üzərində aparılan müşahidələr əsərin qəhrəmanının tarixi şəxsiyyət olmaqla yanaşı, həm də günün qəhrəmanı olduğunu göstərir. Qəddarlıqla iradənin, zorla haqqın bir ideyada birləşməsi tarixi olmaqdan başqa, həm də müasirdir.

Tarixi mənbələrdən məlum olduğu üzrə Teymurun şəxsiyyəti son dərəcə ziddiyyətli olmuşdur. Teymur həm zülmkarlığı, həm də müdrikliyi ilə qeyri adidir. Tarixi mənbələri də araşdırarkən qarşımızda iki Teymur obrazı canlanır: birincisi – qəddar, qantökən bir hökmdar, ikincisi – müdrik, ehtiraslı, mərd sərkərdə.

"Topal Teymur" hər şeydən əvvəl öz mənsub olduğu xalqın bütün xüsusiyyətlərini özündə ehtiva edən bir obrazdır. Cavid yaratdığı obrazın daxili aləmini, şücaətlərini, səciyyəvi xüsusiyyətlərini təsvir etmir, o eyni zamanda tarixi şəxsiyyətlərin tərcümeyi-halını və bədii bir ustalıqla təqdim etməyi bacarırdı. Bu da onu göstərir ki, H.Cavid tarixi şəxsiyyətləri yaradarkən bu mövzuya necə həssas yanaşdığını, onlar haqqında dəqiq tarixi araşdırmalar apardığını təsdiq edir. Əsərdə də Teymurun bioqrafiyası haqqında verilən məlumat tarixi doğruluğu əks etdirir:

"Mənə xaqanlar xaqanı, Turağay oğlu Teymur derlər. Mən Yeşil şəhərdə dünyaya atıldım, Səmərqənddə nəşvü nüma buldum. Babam Barlas qəbiləsinin hökmranı, özüm Gürgan nəslinin baş qəhrəmanı..."(17, s.277)

Cavidin də qeyd etdiyi kimi: "Teymur 1336-ci ilin 9 aprel tarixində, Mərkəzi

Asiyada Keş (hal-hazırda Şaxrisabz, Özbəkistan) şəhərinin yaxınlığındakı Hoca-İlqar kəndində dünyaya gəlib.. Teymurun valideynləri barlas qəbiləsinin başçısı Torağay və Tikinəxatun idi”. (58)

Yerə-göyə sığmayan fəhm-fərasət, iti, çevik yaddaş, tanrının bəxş etdiyi cəsarət, qətiyyət, cismani dözüm və intəhasız fiziki qüdrət... hamısı bu diribaş türk cocuğunun cismini bələmişdi. Böyük hökmdar sonra istehzalı təbəssümlə əlavə edir: "Mən on iki yaşında ikən kəndimdə bir fərasət və böyüklük duymağa başladım. Mənimlə görüşənləri ciddi bir vüqar və hörmətlə qubul edərdim. On səkkiz yaşımda minicillik və avçılığa həvəs etdim. Vəqtimin çoxunu Quran oxumaqda, şahmat oynamaqda və at oynatmaqda keçirdim. Sonra Əmir Qazana yanaşdım, Hüseyn Kürd ilə savaşdım. İlyas Xocaya qoşdum, vəzirinlə pozuşdum. Oradan uzaqlaşdım, türkmənlərə əsir düşdüm. Sonra bir çox arkadaşla buluşdum. Blucistanla vuruşdum. Gah qalib gəldim, gah məğlub oldum. Ayaqdan bir yara aldım, iştə böylə ağsaq qaldım. Əvət mənəm yaralı arslan, mənəm Topal Qaplan". (17, s.278)

Cavidin "Topal Teymur" əsərindəki mübariz ruh o dövrün türk məişətindən, onun qaynar həyatından doğmuşdur. Məlum həqiqətdir ki, qədim türk tayfaları döyüşkən nəsillər olub öz güzəranlarını, gün-dirriklərini hərb, savaş gücünə yaratmışlar. Dövrün ruhu, uzun müddət mübarizə meydanlarına davam gətirmək üçün bir çox fiziki təmrinlərin, iradi keyfiyyətlərin, güc-qüvvət püxtələşdirən savaşların aşılanmasını tələb edirdi. Cavid Teymur obrazının sadə təsvirində də həmin keyfiyyətləri elə bir ustalıqla təsvir edir ki, oxucu dərhal "bu orta boylu, qəvi bünyəli, omuzları geniş, barmaqları yuvarlaq, qılçaları uzun, əzəlatı ğayət sağlam" şəxsiyyətdə daxili səbat, böyük iradi qüvvə hiss edilir. Türk sərkərdəsinin qanlı, amansız qovğa və döyüşlərdən hər dəfə qalibiyyətlə çıxmasının başlıca səbəblərindən biri də türklərin hələ uşaqkən dava, savaş meydanlarında bərkiməsindən irəli gəlir.

“Tarixi şəxsiyyət olan əmir Teymur, H.Cavidin əsərində mütləq hökmranlığı təmsil edən, bütün dövlət işlərini, xalqın və ordunun gücünü öz iradəsində birləşdirən və nüfuzu altında saxlayan müstəbid – cahangir surətidir. Surətin məzmununda bədii-fikri ümumiləşdirməyə daha geniş meydan verilmişdir. Belə ki, tarixən konkret şəxsiyyətin fərdi-psixoloji xüsusiyyətlərini, səciyyəsini və xasiyyətini canlandıran

Teymur həm özünün ağıllı tədbirləri, siyasi uzaqgörənliyi və nüfuzlu hökmdarlara məxsus qətiyyəti ilə fərqlənən fatehin, həm də xalqı və ölkəni qorxunun, cəbrin təzyiqi altında saxlayan müstəbidin sürəti kimi ümumiləşə bilər".(21, s.200)

Tarixi mənbələrdən məlumdur ki, ömrünün 35 ilini istilalara və müharibələrə həsr etmiş Əmir Teymur, Səmərqəndə qayıdarkən, özü ilə həmin yerlərdən ən dəyərli alimləri, şairləri, ustaları, xəttatları da yığıb gətirirdi. Hətta zəbt edəcəyi şəhərə girməmişdən əvvəl , əsgərlərini həmin şəhərə və ya elata göndərərək, sənətkarlara, alimlərə, bacarıqlı ustalara və onların ailələrinə ziyan dəyməsin deyə, qapılarına işarələr qoydururdu. Döyüşlər başa çatandan sonra isə, həmin adamlar qoşun-ləşkərlə birlikdə Səmərqəndə gətirilirdilər. Səmərqənddə bu gün də göz bəbəyi kimi qorunub saxlanan Əmir Teymur dövrünün tarixi abidələrini - məscidləri, mavzoleyləri, mədrəsə, karvan-sarayları işğal etdiyi ölkələrdən gətirdiyi ustalara inşa etdirib.

Fransız səyyahı dünyanın paytaxtı sayılan Səmərqənd haqqında isə yazırdı:"Bu şəhərin özü və torpaqları da bolluq içərisindədir. Çörək kimi, şərab və ət, müxtəlif quşlar çox ucuz qiymətədir və boldur, qoyunlar o qədər nəhəngdirlər ki, hər birinin quyruğu 20 funt çəkisindədir, hətta bir adam onu əlində tuta bilmir. Burada çörək çox ucuzdur, düyü isə həddindən artıq boldur. Buna görə də onu "Səmər"- yəni "şəkər", və bolluq mənasında "kənd" – yəni "bolluq olan şəhər" adlandırırlar. Bu şəhərdə ipək, dəri məmulatları, eləcə də hər cürə daş-qaş, qızıl, gümüş və bunlardan hazırlanmış ən gözəl əşyalar da hazırlanır".

Dünyanın yarısına sahib olan hökmdar qurultaylar keçirər, məsləhətsiz qərar qəbul etməzdi. "Teymur həyatdan istədiyini zorla yox, ağılla əldə etməyi qərara almışdı, deyəsən çıxılmaz vəziyyətlərdən sərkərdəni elə bu qurtarırdı…Doğrudan da, onun kimi ağıl və imandan başqa heç nəyə sahib olmayan bir insan necə belə güclü ordunu yığa bilərdi? Dünyanı necə fəth edə bilərdi? O, öz dövlətini nədən yaratmağa başladı? Hamını təngə gətirən münaqişələrəson qoydu, yasa adlı qanunlar toplusu yaratdı. Bu qanunlar toplusu tabeçilikdə olanlara rahatlıq və əmin-amanlıq təmin edirdi. Qanunlar böyük xaqanın hakimiyyətini və tabeçilikdə olanları qoruyur, yalançılara, xainlərə, döyüş vaxtı əsgərə kömək etməyənlərə, oğurluq edənlərə, hətta

qeybət və başqasının sözünə qulaq asmaq kimi qeyri-insani hərəkətləri edənləri ölümlə hədələyirdi” (52, s.66)

Topal Teymurun müharibə həvəsi, hərbi qüdrəti, böyük dövlət yaratmaq hissi, istəyi eyni zamanda onun həmin dövləti idarə etmək istedadı humanizmi ilə tamamlanır.

20-30 cu illər tənqidçilərin söylədiklərinin əksinə olaraq, Teymuru idealizə etməyən, real tarixi faktlara əsaslanan sənətkar baş qəhrəmanın sarsılmaz və qüdrətli dövlət idarəçiliyində məhz bu prinsiplərin əsas meyar olduğunu və qanunun hamı üçün bərabər olduğunu vurğulayırdı:

“**Teymur**. Divan bəyi daha başqa düşünüyor, o daha etidalçı. Fəqət unutmamalı ki, hər səciyyə və şəxsiyyət birər qanun deməkdir. İştə bu gün şəxsiyyətim bana nə əmr edərsə, onu yapmaqdan çəkinməm. Bununla bərabər bən şimdiyə qadar qurultaysız, şurasız bir şey yapmadım, çünki şurasız bir məmləkət cahil bir şəxsə bənzər ki, tutduğu işlər, söylədiyi sözlər həp nədamət və fəlakət doğurur. Bən daima həkim və aqil şəxsləri dinlədim, böyük sərdarlar ilə müşavirə yapdım. Yalnız hərb ilə mübarizəyi deyil, sülh mə’nafeyini də düşündüm. Əvət, bən şu nihayətsiz ölkələri gah tədbir və siyasətlə, gah sülh və məhəbbətlə, gah təhdid və şiddətlə, gah əfv və mülayimətlə idarə etmək istərim. Bən hər işdə səbat və istiqaməti sevdiyim kibi, həzm və ehtiyatdan da xoşlanırım, lazım gəlirsə, bə’zən düşmanlarıma qarşı səbr və təhəmmül göstəririm, bə’zən də qafil və cahil görünməkdən zevq alırım”. ( 17, s.261-262)

R.Qurbanov Teymur obrazı haqqında bunları söyləmişdir: “Topal Teymur” dramındakı ziddiyyətlər – dəliqanlı bir hərbçi və sülhpərvər, hərarətli və soyuqqanlı, məğrur və təvazökar, həlim və qorxunc kimi keyfiyyətlər də tarixi həqiqətə müvafiq şəkildə verilmişdir”. (37, s.67)

Əsərdə, eyni zamanda Cavid Teymurun müharibəyə, düşmənə, əsir etdiyi dinc əhaliyə, şerə, sənətə, qadına, türklüyə münasibətləri fonunda onun real tarixi şəxsiyyətini yaratmağa çalışmışdır. Bu münasibətlər Teymurun əslində mərhəmətli bir ürəyə sahib olduğunu göstərirdi. Xüsusilə hərəmi Dilşad və digər qadın surətlərinə münasibəti diqqətəlayiqdir. Teymurla Moskvadan hələ kiçik qızcığazkən əsir

gətirilmiş, sarayda böyüyüb boya-başa çatmış gözəl rus qızı Olqanın Teymurla mükaliməsi də baş qəhrəmanın xarakterinin mühüm cəhətini müəyyənləşdirir:

"**Teymur.** Yenə Moskof ərməğanı, gözəl rus qızı nə düşünüyor?

**Olqa.** (məhzun təbəssümlə). Böylə möhtəşəm bir sarayda bənim nə düşüncəm ola bilir?

**Teymur.** O halda yüzünü saran şu kədər bulutları nə deməк? Bən solğun çiçəkləri hiç sevməm. Daima yeni açmış güllər kibi, daima gül bənizli şəfəqlər kibi nəş'əli olmanı istərim. Əvət, söyləyəcəyin sözləri hər zamankı şətarətilə gülərək, nazlanaraq söylə!..

**Olqa.** Bənim şətarətim böyük xaqanın qəzəbinə səbəb olur deyə əndişə ediyorum.

**Teymur.** Pəki, əndişə niçin?

**Olqa.** Çünki qəlbi hərb atəşilə alevlənən bir hökmdara qarşı gülümsünmək cəsarəti həddim deyil..." (17, s.256)

Böyük xaqan nə qədər paradoksal görünsə də millətin gələcəyini düşünür, alim və şairlərinə hörmət edirdi. Ən məğrur hökmdarları əzən, ən şücaətli qəhrəmanları qəhr edən Teymur dəyərli şair və ədiblərə, alim və fazil şəxslərə qarşı hörmət və məhəbbət bəsləyirdi. Millətin gələcəyi haqqında hər zaman bir filosof kimi düşünürdü.

Bəzi mənbələrdə Teymurun savadı haqqında ziddiyyətli məlumatlar var. Tarixdən bəllidir ki, Əmir Teymur təhsilli, savadlı olmuşdur və hətta o, müəllimi Seyid Bərka üçün türbə tikdirmiş, öləndə onu öz vəsiyyətinə görə müəllimi, ustadı Seyid Bərkanın ayaqları altında dəfn etmişlər.Teymurun tarixçilərindən olan Vamberi Germanın da yazdıqlarına əsasən: "Teymur özü xalis türk tərkibilə vazeh və səlis bir üslubda yazırdı. Onun "Tüzükati Teymur" adlı kitabı bu hissədə ən açıq bir dəlil və bürhandır". (48 , s.54)

Əmir Teymurun güclü və müdrik hökmdar olmasını onun yazdığı "Vəsiyyətlər"indən də aydın görmək mümkündür. O, öz vəsiyyətlərində göstərirdi ki, "məmləkətləri idarə edə biləcək bəxtli nəvə-nəticələrim və dünyanı idarə eləyəcək törəmələrim bilsinlər ki, Allah taalanın dərgahından umacağını neçə-neçə övladımın,

nəvə-nəticələrimin səltənət taxtında əyləşmələri, məmləkətləri idarə idarə etmələridir” (26, s.46)

Teymurun “Vəsiyyətlər” i öz dövründə dövləti qurmağın və onu idarə etməyin yollarını hökmdarlara öyrədən özünəməxsus bir nizamnamədir. Bu “Vəsiyyətlər”i aşağıdakı şəkildə ümumiləşdirmək olar:

“**1.** Allah taalanın dini və “Məhəmməd Mustafanın şəriəti”nə əsaslanmaq, islamı qüvvətləndirmək;

**2.** müxtəlif təbəqələrdən olan adamlarla oturub-durmaq, məsləhətləşmək;

**3.** məsləhətə baxmaq, səbrli, hövsələli olmaq, güzəştə getmək;

**4.** qanun-qayda yaratmaq və onu pozmamaq;

**5.** Ətrafına sədaqətli adamları yığmaq və onları ağırlamaq;

**6.** rəhmli olmaq, məzlumları zalımların ayağına verməmək;

**7.** ruhaniləri, müdrikləri, şücaətli adamları hörmətli tutmaq, pis adamları yaxına buraxmamaq;

**8.** Bir işə ki başladın, axıra çatdırmaq;

**9.** Rəiyyətin vəziyyətini öyrənmək, hər bir diyarın əhvalından xəbər tutmaq, əmin-amanlıq yaratmaq;

**10.** Hörmət və qayğı göstərmək, düşməni də bağışlamaq;

**11.** Övladlarını, qohum-qardaşlarını, dost-tanışları unutmamaq, onların dərdinə qalmaq;

**12.** Hərbçilərə xüsusi ehtiram göstərmək, çünki onun həyatı hər an təhlükədədir” (26,s.46-50) və s.

Abbasqulu ağa Bakıxanov böyük hökmdar haqqında belə yazır: “Bu qeyri-adi adamın müharibələrdəki görünməmiş, eşidilməmiş uğurları təsadüfdən daha çox onun ağlının, müdrikliyinin nəticəsi idi. Məlumdur ki, özündən sonra bir sıra məsləhətlər qoyub getmiş, bunların içində öz övladlarına məsləhətləri, yaxud nəsihətləri xüsusilə diqqəti cəlb edir. Yorulmaz fəaliyyətinə və yürüşlərinə baxmayaraq, elmi və ağlı ilə məşhur olan adamları himayə etməyə də imkan tapmışdır”. (3)

Ölkəsini dünyada ən parlaq maarif və mədəniyyət ocağı, ən zəngin sənaye və ticarət mərkəzi görmək istəyən fateh, Avropa hakimlərinə məktublarında yazırdı:

"Bütün aləm ancaq tacirlərin əməyi sayəsində gülşən olur. Tacirlərin sıxışdırılması yolverilməzdir. Mən istərdim ki, biz bu yerlərdə firəng tacirlərini necə himayə ediriksə, bizim tacirlərimizə də o yerlərdə eyni cür münasibət bəslənilsin". Teymur eyni zamanda tacirlərin azğınlaşmasına, xalqın soyulub-talanmasına da yol vermirdi".

Hökmdarda şəxsiyyət orijinallığı, öz fəaliyyətində heç kimə bənzəməmək istəyi və bacarığı tarixdə rast gəlinən faktdır. Əmir Teymur kimi hökmdarların şəxsiyyətindəki qeyr-adiliklər barəsində bir sıra tarixi faktlar vardır. Əmir Teymurun vəsiyyətindən də aydın olur ki, o, bir hökmdar kimi qılınca tapınsa da bu qılıncın üzərində mərhəmət və ədalət dayanırmış.

"Cavidə görə, hərbi yürüşlərə və cahanı istila siyasətinə Teymurun nail olmasının bir səbəbi də, iradəsi altında birləşdirdiyi cəmiyyətin ictimai inkişaf cəhətdən yüksəyə qalxmamasıdır. Fateh, hərbi zəfərlərinin ən böyük nailiyyəti kimi, mədəniyyətin – tərəqqinin çiçəklənməsindən iftixarla danışır" (21, s.201)

Tapşırılan işin öhdəsindən gələ bilməyənlərə qarşı amansız olan Teymur, hətta oğlu Miranşahın bel səhvlərini bağışlaya bilmir. Yarıtmaz hakimiyyəti ilə Azərbaycanda iğtişaşlar yaranmasına səbəb olan oğlunu Divanbəyi ilə söhbətində bu sözlərlə damğalayır:

"**Divanbəyi.** Yenə isyan!.. Yenə azərbaycanlılar oğlunuz Miranşaha qarşı isyan etmişlər.

**Teymur.** Səbəb!?

**Divanbəyi.** Səbəb Miranşahın gevşəkliyi... idarəsizliyi.

**Teymur.** (qızğınca). Ah, Miranşah, Miranşah! Əvət, onda azcıq tədbir və siyasət bulunsaydı, kimsə izindən çıqmazdı. Orasını idarə edəcək sağlam və düşüncəli bir baş lazım. Heyhat ki, Miranşah kibi şaşqınlar o düşüncədən pək uzaqdırlar.

**Şair.** Azərbaycan eşsiz bir cənnət bucağı, tükənməz bir sərvət ocağıdır. Lakin əfsus, binlərcə əfsus ki, Miranşahlar oyuncağıdır". (17, s.271)

Tarixi mənbələrin bir çoxunda yazılmış Teymurun Azərbaycanı öz imperiyasına birləşdirdiyi, oğlu Miranşahı isə buraya hakim təyin etməsi, lakin Miranşahın idarəçilik sahəsində bacarıqsızlığı üzündən baş verən üsyanlar barədə

məlumatlara rast gəlmək mümkündür. Bu tarixi hadisə yuxarıdakı mətndə də özünü göstərir.

Cavidin yaratmış olduğu obraz elə bir tarixi obrazdır ki, onun qəddarlığı ilə mərhəməti arasında incə bir yol var və bu əsər boyu özünü biruzə verir.

“Teymur obrazı bu qəddar mərhəməti ilə Nitşenin fəlsəfi görüşlərini xatırladır. Nitşe zəiflərin əzilməsini təbii hesab edir. Teymur isə daha çox məğrurları əzməyə meyllidir. Əmir, o məğrurları əzməyə qərar verir ki, onlar özlərindən zəifləri əzirlər. O, zəiflərini əzən məğrurları cəzalandıraraq, onların da bir başqası qarşısında gücsüz olduqlarını sübuta yetirir. Beləliklə də, Teymurda qəddarlıq və mərhəmət bir-birindən ayrılmaz formada, qovuşuq şəkildə üzə çıxır”. (41, s.49)

Ədib Teymurun siyasətinin ancaq müharibələr aparmaq olduğunu göstərmir, eyni zamanda da onun dinc yolla həll edə bilmədiyi məsələlərdə müharibəyə əl atdığını görürük. Teymur eyni zamanda düşmən psixologiyasına yaxşı bələddir və onun necə reaksiya verəcəyini əvvəldən hiss edir:

“**Teymur.** Osmanlı sultanı Yıldırım Bayazidə elçi göndərdik, hənuz ondan bir xəbər yoq. Hər halda bizim Bursada, Yıldırım paytaxtında bir gözçümüz bulunmalı; sarayın iç və dış yüzünü öyrənib hər ay bizə xəbər verməli. Divan bəyi lazım gələn vəzifəyi sana söylər. Ordumuz bir həftə sonra Mısır-Şam tərəflərinə hərəkət eyləyəcək. Sən də doğru, Bursaya gedərsin. Orada kəndini bana düşman göstərirsin, Yıldırıma məhəbbət bəslədiyin içi̇n buradan qovulduğunu söylərsin. Hətta bizimkilər də öylə bilməli... Çünki şəhrimizdə casus bulunur da tədbirimiz boşa çıqar.

**Orxan .** Yıldırım sözlərimə inanmazsa?

**Teymur.** Hiç məraq etmə, inanır; çünki o çoq məğrurdur. Məğrurlar isə həqiqəti görəməzlər. Diyorlar, o, gözdən pək zəifdir, məgərsə qəlbi və düşüncəsi də kor imiş...” (17, s.259)

Azərbaycanda Əmir Teymura itaət göstərməyən əsas qüvvə Qaraqoyunlulardı. Qaraqoyunlu Qara Məhəmməd Teymurun göndərdiyi ordunu məğlub etmişdi. Əmir Teymur Azərbaycan uğrunda gedən döyüşlərdə Qaraqoyunlu əmirlərinin müqavimətini axıra qədər qıra bilmədi. Qara Yusifin ciddi müqaviməti və itaət göstərməməsi Teymuru daha da qəzəbləndirmişdi. Sonralar azərbaycanlı sərkərdənin

İldırım Bayazidə sığınması Əmir Teymurla Osmanlı sultanı arasında münasibətlərin pisləşməsinə və müharibəyə səbəb olmuşdu. 1402-ci ildə Ankara yaxınlığında Əmir Teymurla İldırım Bayazidin orduları arasında həlledici döyüş oldu. Hər tərəfdən iki yüz min döyüşçünün iştirak etdiyi bu savaşda osmanlı ordusu darmadağın edildi və qüdrətli türk sultanı əsir alındı. Türkün türkü qırdığı bu qanlı döyüş Kostantinopolun alınmasını əlli il yubatdı.

"Zira Teymur özünü bütün türk xalqının müstəqil padşahı hesab etdiyindən, əvvəllər səlcuqilərin tabeliyində olan bu sülalənin hər kəsdən əvvəl özünə itaət etməsini istəyir və bundan başqa onların (Qaraqoyunluların) Osmanlı sultanı ilə ittifaq bağlamasına qəzəblənirdi". (48, s.38)

Hələ sağlığında Teymur haqqında bir çox mülahizələr vardı. Ölümündən sonra isə bu daha da artdı, əfsanələrə çevrildi. Bir tərəfdən qəddar, o biri tərəfdən rəhmli işlər görən Teymur barədə əhvalatlar bütün dünyanı dolaşmağa başladı. Makedoniyalı İskəndər, Çingiz xan kimi Teymur da yaddaşlarda qəhrəman kimi qaldı.

Teymurun Bəyazidi əsir tutması barəsində bir sıra salnaməçilərin bir-birinə zidd olan qeydləri vardır. Bəzi tarixi mənbələrdə yazırlar ki, Əmir Teymura döyüşü uduzandan sonra əsgərlər Sultan Bəyazidi dəmir qəfəsdə onun hüzuruna gətiriblər. Əsl həqiqətdə isə Sultan Mahmud xan qolları zəncirli Sultan Bəyazidi cahangir Teymurun hüzuruna gətirəndə Teymur əli ilə "dayanın" əmri verib deyir: "Açın sultanın qollarını. Unutmayın ki, siz mənim hüzuruma şah gətirirsiniz". Bir məqama da diqqət yetirmək lazımdır ki, Bəyazidi Teymurun hüzuruna adi əsgərlər deyil, Cığatay sultanı Mahmud xan gətirmişdi. Bu da yenə Əmir Teymurun ləyaqətinin, mənəviyyatının göstəricisi idi. Sultan Bəyazidi yanında oturdan Teymur ona belə bir sual verir: "İndi nə deyirsən?" Bəyazid səhv etdiyini bildirib deyir ki, oğlanlarını gətirsinlər. Bir az keçmir ki, çaparlar Bəyazidin iki oğlunu gətirirlər. Oğlanlarına Osmanlı vilayətlərində hökmdarlıq verir. Bu görüşdən iki il sonra etdiyi səhvin xəcalətindən ürəyi qubar gətirir və Ağşəhərdə dünyasını dəyişir. Əmir Teymur Bəyazidin oğlanlarına xəbər göndərir ki, atalarını şahlara layiq dəfn etsin və bundan sonra öz oğlu Miranşahı deyil, Bəyazidin oğlunu Osmanlıya hökmdar təyin edir.

Hənəfi Zeynallı, xüsusən Əli Sultanlının məqalələrindən bəhrələnən tədqiqatçı və Teymurləngin həyat və fəaliyyətinin dünya ədəbiyyatı və tarixində diqqət mərkəzinə çəkilməsi məsələsi üzərində dayanır. Avropalı Volter və Marlonun həmin şəxsiyyətlər haqqında yazdıqları tarixi əsərləri şərqli Hüseyn Cavidinki ilə tutuşduraraq maraqlı nəticələrə gəlir: "... Cavid sübut edir ki, Teymur kimi sərkərdələrin dövlət idarəçiliyində, şəhərlər salmaqda, mədəniyyəti, ədəbiyyat və sənəti inkişaf etdirməkdə gördükləri az-çox müsbət fəaliyyətləri dağıdıcı müharibələr, qırğınlar qarşısında puç olub gedir, xalqların nəsillərin yaddaşında belələrindən yalnız vahimə törədən bir ad qalır."(32)

Bir şəxsiyyət kimi onun apardığı mübarizə "ədaləti bərpa etmək" ideyasına əsaslanırdı. Digər tərəfdənsə Teymur ölkələri fəth etmək üçün qan tökürdü. Yenə qəribə ziddiyyətlə qarşılaşırıq. Amma aydınlaşdırılması mümkün olan bu ziddiyyətin bir səbəbi ondadır ki, bəşəriyyət öz inkişafında elə kamil bir dövrünə çatmamışdır ki, orada qan tökmədən, yəni qorxu və qüvvət tətbiq etmədən ədalət bərpa etmək mümkün olsun, digər tərəfdən bəşəriyyətdə ədaləti mütləq tətbiq etmək mümkün deyildir, çünki cəmiyyətdəki tətbiq olunan qanunlar iki xarakterlidir bir tərəf şər, digər tərəf xeyri təşkil edir.

"Cavid tarixi həqiqətə sadiq qalaraq Teymurun ölkəni idarə etmək işindəki, həmçinin xalqa münasibətindəki ziddiyyət və mürəkkəblikləri konkret səhnələrdə əks etdirməyə çalışır. Teymur ölkənin mənafeyini də, xalqın taleyini də özünün dünyaya hakim olmaq ehtirasına tabe etdirir, çünki onun siyasi fəaliyyəti də, ağlı da, gücü də bu məqsəd ətrafında cəmləşdirilmişdir. Cavid qəhrəmanının xarakterini bu istiqamətdə dərinləşdirməklə onun bir şəxsiyyət kimi, bir hökmdar kimi xalqın həyatında bəzən mənfi rol oynadığını, qırğın və fəlakətlərə səbəb olduğunu əsaslandıra bilir".(25, s.165)

Teymurun ədalətli, müdrik həssas rəhbər kimi müsbət keyfiyyətləri inandırıcı təsvir olunmaqla yanaşı, onun çox mürəkkəb xarakter xüsusiyyətləri də təbii verilir. Belə məqamlarda idealla real sanki üz-üzə gəlir, qarşı-qarşıya durur. Sənətkarın inikas özünəməxsusluğu yenə də realizmlə romantizmin vəhdətində uğur qazanır.

Teymur bir hökmdar olmaqla bərabər, həm də tədbirli bir dövlət xadimi

olmuşdur. Onun fəth etdiyi məmləkətlərdə qoyduğu qayda-qanunlarda zülmə deyil, ədalətə əsaslanmağa çalışmışdır. Teymur özünün xatiratında yazır: “Əgər bir məmləkətdə zülm və istibdad güclənirsə, o halda asayiş və əmniyyəti ümumiyyə naminə bu kimi zülm və istibdadın kökünü qazmaq, o məmləkətə hücum etmək hər kəsin vəzifeyi insaniyyətidir. Müzəffər və qalib olan bir cahangir, zülm və təzyiq altında işləyən bir milləti zalım və qəddar müstəbidin əlindən xilas etməyə borcludur”. (48, s.27)

“Topal Teymur”la bağlı Y.Qarayev belə bir qənaət irəli sürür: “Etiraf edək ki, Teymuru belə bir məsxərənin hədəfi etmək “idealizə” janrı və üslubu üçün həddən ziyadə qeyri-münasib bir bədii vasitədir. Elə topal sifətini Teymur adı ilə yanaşı qoyub sərlövhəyə çıxarmaq...özü çox şey ifadə etmirmi?” (38, s.350).

H.Cavidin Teymuruna belə bir müstəvidən yanaşmaq qətiyyən ədalətli deyil. Əvvəla Topal Teymur elə Teymurləngdir, fərq burasındadır ki, H.Cavid Teymura fars qaynaqlarının təbiriycə “Teymurləng” deyil, türkcənin öz dil müstəvisində “Topal Teymur” deyir. Belə bir adqoyma ilə H.Cavid tamamilə Cavidanə bir iş görüb. Topal Teymur, əslində, Axsaq Teymurdur. Topal sözünün dilimizdə heç də alçaldıcı bir çaları və anlamı yoxdur. Topal dilimizdə iki ayağının, yaxud qolunun biri digərindən qısa olan adamlara deyilir. V.Bartold yazır ki, Sistanda Teymur sağ əlindən iki barmağını itirmiş, ağır yaralanmış, sağ ayağı şikəst olmuşdu. Savaş meydanında şıkəst olmuş qəhrəman bir şəxsiyyətə H.Cavidin topal deyə rişxənd edəcəyi mümkün deyildi. Teymurləngi ilk dəfə “topal” – ayaması ilə xatırladan isə “Teyflər keçidi”ndə Ə.Hamid olmuşdur. Teymurun cahangirlik duyğusu, özünə əminliyi, özünü Allahın himayəsində hiss etməsi onu Osmanlı imperiyası ilə üz-üzə gətirir:

“**Teymur.** (məğrur qəhqəhəylə). Allah bir olduğu kimi, padşah da bir olmalı, şan və şöhrət izləyən bir hökmdar qarşısında cahan... nədir?” (17)

Özünün də dediyi kimi, “Dünya o qədər böyük deyil ki, ona iki hökmdar lazım gəlsin”.

“Ömrümün 57 ilini at belində keçırdim. 25 yaşımda yaralanıb qolumu itirdim, topal qaldım...Mənə Teymurləng deyirlər . Topal Teymur deyən də var. Ancaq bu ad heç kimdə istehza doğurmur. Əksinə, çoxlarının canına üşütmə salır. On yeddi hərbi

yürüş etdim. Əvəzsiz bahadırlar sayəsində çox yerlər fəth etdim. 27 ölkənin xaqanı oldum... Turan, İran, Rum, Məğrib, Suriya, Misir, İraqi-Ərəb, İraqi- Əcəm, Mazandaran, Gilan, Şirvan, Azərbaycan, Fars, Xorasan, Dəşdi-Qıpçaq, Böyük Tatarıstan, Xərəzm, Xütən, Kabulistan, Baxtərzəmin, Hindistan... İskəndərdən bəri heç kim bu qədər əraziyə sahib olmamışdı... Deyirlər çox qəddaram, amansızam. Elə bilirlər adam öldürməkdən ləzzət alıram. Düzdür, yeddi sülalənin kökünü kəsdim, yüz minlərlə adamı qətlə yetirdim. Ancaq birini göstərsinlər ki, nahaq yerə qanını tökmüşəm. Məni aldadırdılar, mənə xəyanət edirdilər, məndə öldürürdüm. Belə olmasa, bu boyda islam dünyasına hakim ola bilərdimi? Mən heç kimi aldatmamışam, həmişə sözümün üstündə durmuşam, hətta hücumdan qabaq xəbərdarlıq etmişəm. Elə olub ki, düşmənimi igidliyinə görə bağışlamışam. Şairlərə, üləmalara, tacirlərə himayədar olmuşam”. (56)

Cavidin yaratdığı Teymur dünyanın dəyərsizliyini hiss edə-edə onun dəyərli simalarını da qiymətləndirməyi unutmur. Bunu onun Kirmaniyə olan münasibətində zatən aydın şəkildə görə bilərik.

Əmir Teymur obrazını H.Cavid hər bir dialoqda ağıllı və müdrik şəxsiyyət kimi təqdim edir. Şəxsiyyət və özünə sadiqlik baxımından Teymurda mütləq bütövlük mövcuddur. Şahlığa xas tədbirlilik, soyuq ağıl, siyasət kimi keyfiyyətlər Teymurda birləşmişdir. O, bir hökmdar kimi yüksək keyfiyyətlərə malikdir. Topal Teymur döyüş meydanında amansızdır, amma adi həyatda ədalətlidir. Deməli Teymurun dünyası iki hissəyə bölünür: həm döyüşdə, həm də ondan kənarda. Əmirin düşüncələri bu baxımdan başqa başqadır. Müharibənin qayda-qanunlarına tabe olmuş fateh bu qanular çərçivəsindən çıxmağa cəhd göstərir, çünki o Yer üzünə adi yaşamaq üçün yox, “böyük əməllər” üçün gəldiyinə şübhə etmir. Teymurun gəldiyi qənaətə görə ədalətsiz dünyada “ədalət yaratmaq” üçün Teymur qılıncı lazımdır. Paslı vicdanları təmizləmək onun missiyasıdır. Bu missiyadan doğan ağırlıq və məsuliyyəti hər dəqiqə hiss edib duyan hökmdarın öz şəxsi dünyası zalım, yırtıcı deyildir. Bir hökmdar kimi onun şöhrəti yerə-göyə sığmır, adi insan kimi isə o fərəhsizdir. Teymur döyüş meydanında yox, taxt-tac hökmdarı kimi ədalətli hökmdardır. Şairə “bəxtiyar şair” müraciətindən də göründüyü kimi ona qibtə edir, lakin burada istehza da vardır.

Müəllif eyni zamanda Teymurun nöqsanlarını göstərməklə oxucunu əsərin ideyasını düzgün təyin etməyə hazırlayır. Əsəri cazibəli edən və tamaşaçını heyrətdə qoyan məhz belə bir fenomen sərkərdənin ziddiyyətli, mürəkkəb xarakterinin rəngarəng dramaturji priyomlarla aşkarlanmasıdır. İldırım Bəyazidin təlxəyi Cücənin ifasında Teymur sanki ifşa yox, təbliğ olunur. Onun mənfi tərəflərindən çox, müsbət tərəfləri, cəhətləri qabarıq nəzərə çarpır. Bunu İldırım yox, arvadı Meliça duyur və qorxuya düşür. Teymurun xarakterində qorxmaq və qorxutmaq, müstəbidlik və xeyirxahlıq, ehtiyatlılıq və çılğınlıq, siyasət və rəyasət kimi çoxtərəfli xüsusiyyətlər toplanmışdır.

Osmanlı hökmdarı İldırım Bəyazid əsərdə hər hərkətini ölçüb-biçən Teymurun tam əksi kimi qələmə alınmışdır. Hər iki hökmdar da mənəm-mənəmlik iddiasındadırlar. Lakin bu iddia Teymurda öz təsdiqini tapırsa, İldırımda elə üçüncü pərdənin ilk səhnəsindən şübhə və inamsızlıq doğurur. Buna əsas isə İldırımın “kor” siyasəti və ətrafını bürüyən saray adamlarının öz işlərində səriştəsizliyidir.

“Cavid İldırmın başlıca olaraq mənfi xüsusiyyətlərini göstərir: İldırım Bəyazid məmləkət və dövlət işlərinə laqeyd, ağıl və mühakimədən uzaq, quru şöhrtinə güvənən, eyşü-işrət düşkünü, kobud, məğrur, əyyaş bir sultandır. O, rəqqasələrə uymuş, özü kimi kütbeyin, sərxoş vəzirlərin əlində alət olmuşdur. Odur ki, onun idarə etdiyi məmləkətdə özbaşınalıq, qanunsuzluq, dərəbəylik, hədsiz zülm və vəhşət hökm sürür”. (18, s.170)

Teymurla Bəyazid arasında aparılan məktublaşmaların və danışıqların acı nəticələrini H.Cavid tarixi həqiqətlərə əsaslanaraq yüksək sənətkarlıqla qələmə almışdır:

“**Teymur.** Ah, öyləmi, öyləmi!? Hiç zərər yoq, biz səfər üstündəyiz. Er-gec həpsinin halı sorulur, hər kəs kəndi azğınlığına görə cəza bulur. Xayır, Qara Yusifdə bir tilki qadar cəsarət yoq. Şübhəsiz ki, o həp Yıldırıma güvəndiyi için şu fitnələri qaldırıyor. (Divan bəyiyə). İkinci məktubu gecikdirmə. Hər halda Yıldırım onu bizə təslim etməli. (Qızğın). Ah, Yıldırım! Yıldırım! Bən səninlə xoş keçinmək istərkən, sən çaqqalları, tilkiləri bənim üzərimə şımartıyorsun. Yoq, bən hər sərsəriyə qarşı əyləncə olamam. Qara Yusif təslim edilməlidir, təslim! Yoqsa ikinci məktubunda da

saymazlıq və soğuqluq göstərirsə, o halda Yıldırımın kəndisilə hesablaşmalıyım. Əvət, Topal Teymuru saymayanlar, kəndi əllərilə kəndilərinə məzar qazmış olurlar". (17, s.271)

Düşməni Teymuru qiymətləndirə bilmir, tədbir görmək əvəzinə onu təhqir edir, sarayına Avropadan olan adamları yığıb içki məclisləri təşkil edir. Teymurun xəfiyyəsini belə tanıya bilmir. Onu özünün ən yaxın adamı etməkdən də şübhə duymur. Lakin Teymur bu səhvlərin heç birisini etmir. Çünki onun dövləti idarəçilik məharəti hər bir təhlükənin qarşısını almağa hər zaman qadirdir. Teymurun ətrafında onun özü kimi mərd sərkərdələrin olması, onun qüdrətini daha da artırır:

"**Teymur.** Ordumuzun qəhrəman sərdarı Aqbuğa nə halda?

**Aqbuğa.** Aqbuğa hər an yılmaz ordu ilə bərabər sarsılmaz xaqanın əmrini bəklər.

**Teymur.** Pək gözəl, oturun. (Otururlar). Aylarca Bingül dərəsində böyük şənliklər yapdıq, epeycə zevq və səfayə daldıq, bir qadar da müharibə şənliyi yapsaq eyi olmazmı?

**Aqbuğa.** Bəncə müharibə meydanı dügün dərnəklərindən, eyşü-nuş məclislərindən daha xoş, daha ruhaşinadır". (17, s.260)

Ə. Sultanlının fikrincə, "müəllif həm tarixi həqiqətə riayət etmiş, həm də zəngin materiala əsaslanmışdır – sadəcə, tarixi materialı müəyyən dərəcədə romantikləşdirmişdir. Görkəmli ədəbiyyatşünas bunu da əlavə edir ki, Teymur bütün mənfi və müsbət cəhətləri ilə təqdim olunmuşdur".

Lessinqin fikrincə isə "Dramaturq üçün tarixi həqiqət qayə deyildir... Faciə danışıqlar şəklində yazılmış tarix deyildir, faciə üçün tarix bizim müəyyən xarakterləri bağlamağa adət etdiyimiz adlar xəzinəsindən başqa bir şey deyildir. Əgər şair tarixdə öz süjetinin bəzənməsi və fərdiləşdirilməsi üçün lazımi şərait tapırsa, qoy onlardan istifadə etsin".

Teymurun içində çarpışma vardır, özünə görə o, ədalət elçisidir, amma onun bu ədaləti qan tökməklə bərpa etməsindən görünür ki, dünya onun gözündə dəyərsizləşmişsə də, mənasızlaşmamışdır. Əsərin sonunda Teymurun Bəyazidə dediyi sözlərdən belə nəticəyə gəlmək olar: "Anqara şəhəri ətrafında özünün siyasi

əleyhdarına – türk sultanı İldırım Bəyazidə qələbə çalan fateh, nəhayət bu acı həqiqəti başa düşür ki, dünyaya ağalıq etmək eşqilə apardığı müharibələrin, siyasətlərin hamısı, yersiz və mənasız imiş. Bu doğru nəticəyə gəlib çıxan fateh müstəbidliyin mahiyyətini, zülmün və qorxunun həyat önündəki gücsüzlüyünü dərk edir. Dramaturq əsərin finalında açılan və əsas qəhrəmanın anlayışına müvafiq şəkildə aydınlaşan bu fikrin təhlili üzərində ardıcıl dayanmış, təbliğinə çalışdığı ictimai-əxlaqi konsepsiyanın şərhini də həmin istiqamətdə aparmışdır”.( 21, s.200)

Lakin qüdrətli cahangir olan Teymur şəxsiyyəti insana hörmət, igidə, mərdə böyük sədaqət hissi təlqin edir. İldırım Bəyazidi əsir aldığı zaman ona rişxəndlə yazdığı, kinli, acı və zəhərli sözləri unudaraq deyir: "İştə, mən bu məktubdakı sözlərinizi unutdum və sizi əfv etdim. Yalnız əfv etmək deyil, hətta məhəbbətinizi də qazanmaq istərəm".

İldırım Bəyazid tarixdə H.Cavidin yaratdığı obraza nisbətən fərqlidir. Bəlkə də Cavid Teymuru daha qüdrətli bir sərkərdə olduğunu göstərmək üçün Bəyazidi bir şəxsiyyət olaraq zəif qələmə almışdır. Lakin tarixi mənbələrdə göstərilir ki, müharibələrdə göstərdiyi cəsarət və manevr etmək qabiliyyətinin son dərəcə sürətli olmasına görə əsgərlər ona “yıldırım” ləqəbi vermişlər.

“Topal Teymur” süjet xətti etibarilə böyük bir tarixi dövrü əhatə edən əsər olmasa da, qəhrəmanların dilindən verilən məlumatlar geniş bir zaman çərçivəsini əhatə edir.

İldırım Bəyazidlə H.Cavidin yaratmış olduğu obraz arasında bənzər mənəvi keyfiyyətlərin olması da yox deyildir: “Qərbdəki zəfərlərindən sonra Bəyazid büsbütün qürura qapılmış və sərxoşluğa meyilli olmuşdur. Bu üzdən Teymurla arasındakı bəzi anlaşılmazlıqları barışıq və yaxşı niyyətlərlə yoluna qoymamışlar, məktubunda Teymuru müharibəyə sövq edirdi”. (49, s.54)

Eyni zamanda Cavid İldırım Bəyazidin keçirdiyi, hamıdan gizlətməyə çalışdığı iztirablarını onun çobana olan münasibətində dilə gətirmişdir:

**Yıldırım.** (pəncərəyə yaqlaşır, çobanı dinlər. Həzin və yaralı bir ah çəkərək.) Çal!.. Çal!.. Əvət, bəxtiyar çoban, çal!.. Nə Sivas kibi şəhrin əlindən getmiş, nə də Ərtoğrul kibi oğlun...(17, s.288)

Tarixi pyesi yazarkən H.Cavid nə Teymuru, nə də İldırım Bəyazidi cahangirlik ehtirasından çəkindirə bilməzdi. Çünki bu, tarixi həqiqətləri təhrif etmək olardı. Müharibələri və fatehləri yetirən zamandır. Bu tarixi labüdlüyün ən çirkin tərəfi odur ki, sülh və əmin-amanlıq üçün yaranan bəşəriyyət mütəmadi surətdə "kor abdal" və "dəli topal"ların oyuncağına çevrilib bir-birini qırmaqla məşğul olur:

"**Teymur.** Əcəba, məğrur Yıldırım nə düşünüyor?

**Yıldırım.** Düşünəcək bir şey yoq. Əvət, sən qalibsin. Lakin bu qələbə türk əqvamını deyil, yalnız fürsət bəkləyən qomşu hökumətləri məmnun etdi. (Acı bir kökəs keçirdikdən sonra, çoq mütəəssir və şiddətli). Ah, daha doğrusu, Islam aləmini başsız qoydu.

**Teymur.** (iki-üç adım aqsayaraq Yıldırıma doğru yürür, məğrur və gur bir səslə). Hiç məraq etmə, xaqanım! Sən kor bir abdal, bən də dəli bir topal! Əgər dünyanın zərrə qadar dəyəri olsaydı, yığın-yığın insanlara, ucu-bucağı yoq məmləkətlərə... sənin kibi bir kor, bənim kimi bir topal müsəllət olmazdı".(17, s.302)

Ədib, Teymurdan daha çox İldırımın faciəsini verməyə diqqət yetirmişdir. Çünki Teymurla müqayisədə o daha ağır bir siyasi şəraitdə fəaliyyət göstərir. Bu türk hökmdarını əhatə edən satqın və xainlər onun labüd məğlubiyyət planını hazırlamaqla məşğuldurlar. Xarakterinin zəifliyi də bir yandan İldırımı faciəyə sürükləyən amillərdən biri kimi ön plana çıxır. İldırımın müəllif tərəfindən kor olaraq təqdim edilməsi isə onun zahiri qüsurundan daha çox bəsirət gözünün korluğuna incə bir işarədir.

Bəyazidin sarayı sərxoşlarla, Qərb ölkələrindən gətirilmiş rəqqasələrlə doludur. Teymur Şərqdə bir-birinin arxasınca ölkələr tutduğu bir dövrdə Osmanlı sarayında saymazyana kef məclisləri qurulur, nəşəli günlər keçirilir. Sarayda yalnız iki nəfər ayıq adam var – onlardan biri Teymurla yanaşı Bəyazidin də məsxərəsini çıxaran Cücə, digəri isə filosof Şeyx Buxaridir.

"H.Cavid Turançılığa zərbə vurduqlarına görə Əmir Teymura "topal", İldırım Bəyazidə isə "kor" ifadəsini fiziki eybəcərlik(tarixən onlardan biri axsaq olsa da, digəri zəif görsə də) mənasında yox, mənəvi mənada, ağlın korluğu mənasında işlətmişdir. "Topal" sözünün Teymur sözü qarşısında epitet kimi işlədilərək, əsərin

sərlövhəsinə çıxarılmasının başqa bir səbəbi isə, 20-ci illərdə Cavidə, həm də istibdaddan və irticadan qorunmaq üçün lazım idi”. (40, s.13-14)

“Topal Teymur”da müəllifin əsas məqsədlərindən biri də baş qəhrəmanın, əsərin qayəsinə uyğun obrazını yaratmaq, onun xarakterinin dolğun bədii ifadəsini verməkdir. Xarakter yaratmağın iki məlum forması: a)qəhrəmanın hadisələrdə iştirakı; b)qəhrəmanın düşüncələrini qələmə almaq formaları ilə yanaşı, H.Cavid “Topal Teymur”da portret yaratma üsulundan da istifadə edir. Moskvaya yürüş edib oraya vəlvələ salmağı, Teymurun yenilməz fatehliyini, olqaları hifz eləməsi onun daxili nəcabətini göstərir. Bu, xarakteri hadisələr vasitəsilə açmağa bir misaldır. Müxtəlif personajlarla (Orxan, Olqa, Şair Kirmani və b.) mükalimədə söylədikləri Teymuru bizə qalibiyyətdən güc alan bir şəxsiyyət kimi tanıdır.

Cavid Topal Teymur və İldırım Bəyazidin sosial-siyasi, dövlətçilik və vətənpərvərlik xüsusiyyətləri haqqında həqiqəti təmin etmək üçün Şair Kirmaninin, Divanbəyinin, Əli Paşanın, Şeyx Buxarinin bədii obrazlarından məharətlə istifadə etmişdir.

Dövrünün ictimai-siyasi hadisələrini tarixi fonda əks etdirən H.Cavid, “Topal Teymur” dramında Əmir Teymur və İldırım Bəyazid kimi hökmdarların bədii obrazını yaratsa da, yenə də tarixi şəxsiyyətlərin timsalında onlarla, mühitlə barışmaz mövqedə duran qəhrəmanlar yaratmışdır. Onlardan Şair Kirmani və Şeyx Buxari humanizmi, elmi, ədaləti təbliğ etməklə yanaşı, eyni zamanda müəllifin ideya-fəlsəfi mövqeyinin daşıyıcılarıdır.

Şair Kirmani dramaturgiyamızda yaranan ilk böyük şair-filosof surətidir. Topal Teymura “Teymurnamə” yazan, sarayda və hökmdar yanında xüsusi hörmət və izzət sahibi olan, yeri düşdükcə özünün mərhəmət və məhəbbət fəlsəfəsi ilə böyük fatehə təsir göstərmək istəyən yaddaqalan bir obrazdır. Əmir Teymur adını gələcək nəsillərə çatdıracaq olan bu şəxsə dərin hörmət bəsləyir və ona heç kimə göstərmədiyi nəvazişlə yanaşır. Bunun bir səbəbi özünü tarixçisinə ədalətli və mərhəmətli göstərməkdisə, digəri şairin şəxsində Teymurun bütün şair və elm adamlarına olan hörmətidir.

Məsud Əlioğlu Şair Kirmani haqqında düşüncələrini belə dilə gətirir: “Dramda

müsbət həyati başlanğıcın, insana məxsus təbii, fitri və işıqlı keyfiyyətlərin keşiyində duran əsas qüvvə şairdir. Cavidə görə şair fikrin azadlığı, könlün fərəhli diləkləri və ruhun sərbəstliyi deməkdir. Şair, qanunların çərşivəsinə sığmayan, mənəvi boşluğa və məhdudiyyətə qarşı qiyam qaldıran yenilməz bir varlıqdır. Elə bir varlıq ki, fatehin cürəti, müstəbidin hökmü və hakimin gücü onu sarsıtmağa, itaətə qadir deyildir. Şair, insanlığı yüksəldə bilən mənəvi-əxlaqi amillərin mövqeyini təmsil və ifadə edir. İnsan təbiətinə ən çox məhz bu baxımdan təsir göstərməyə çalışır". (21, s.203)

Digər tərəfdən, "M.Cəfərin fikrincə, "dramaturqun nəzərində şair Kirmani məhəbbət ideyasını birtərəfli anlayan, haqq, ədalət uğrunda çox passiv mübarizə aparan, şirin arzular bəsləyən, seyrçi, xəyalpərvər bir adamdır".(18) Bir-birinə əks olan bu iki fikir heç biri Kirmaninin şəxsiyyətini tam əks etdirə bilməz.

Teymur pyesin birinci pərdəsində saray şairi Kirmani ilə üz-üz gəlir. Onu da qeyd edək ki, Teymur sarayında təsvir edilən şəxslər içərisində şair Kirmani, bəlkə də yeganə adamdır ki, hökmdarla mübahisə edə, onun hərəkətlərini müzakirə edə bilir. Şair Kirmani ilə mükalimə Teymurun bir obraz olaraq daha da açılmasına əhəmiyyətli dərəcədə təsir göstərir:

"**Teymur.** Buna sən nə dersin, şair? Bu gün gözümə pək nəş'əli görünüyorsun.

**Şair.** (laübali və yarımsərxoş bir qəhqəhəylə). Şənlik... o da şənlik, bu da şənlik... Qavğa... o da qavğa, bu da qavğa... Yalnız, əvət yalnız arada bir fərq var ki, siz cəngavərlər insan qanına hərissiniz, biz şairlər gülgün şərabə... Onda vəhşət və dəhşət var, bunda zevq və şətarət. Sizin hərb nə'rələriniz yürəkləri qoparır, insanları parçalatır, anaları ağlatır. Şairlərin eyş-nuş təranələri isə kinləri, kədərləri öldürür. Yüzləri, gönülləri güldürür. Siz insan qafalarını qırarkən, biz də o qafalardan yapılma qədəhləri bir-birinə vururuz. Siz hərb və dəhşət qalibi, biz eşq və məhəbbət məğlubu. Fəqət bizim şu məğlubiyyətimiz o qalibiyyətdən daha üstündür.

**Teymur.** Bəxtiyar şair! Səni sərməst edən tatlı xəyal, yalnız xoş bir təsəllidir. Bununla bərabər sən pək böyüksün, əvət, sənin kibi dəyərli simaların qədr və qiyməti anlaşılsaydı, bənim kibi topallar soldakı sıfır qadar mə'nasız qalırdı. Siz yarasalar ölkəsində, korlar məmləkətində parlayan bir günəşsiniz. Əfsus ki, insan adını daşıyan ikiayaqlı həşərat pək qaba və pək səfil bir şey... Iştə şu qaba və miskin həşəratı

uslandırmaq için, onların pas tutmuş kirli vicdanlarını yıqamaq için yalnız Teymur qılıcı lazım... Əvət sevgili şair! Insanlar mərhəmət və məhəbbətdən ziyadə dəhşət və qüvvətə tapınırlar. (Aqbuğaya). Demək, ordu tamamilə hərbə hazır, öyləmi?”(17, s.260-261)

Teymurun fikrincə, insanlıq yalnız zora, qüvvəyə, qılınca tabedir, başqa cür onu ram etmək mümkün deyildir. Teymur əlində qılınc olmasa hakimiyyətini əldə saxlaya bilməyəcəyini, səltənətinin zorakılıq üzərində bərqərar olduğunu yaxşı anlayır. Bunu etiraf etməkdən isə heç bir zaman çəkinmir.

Əmir Teymuru Şair Kirmani ilə münasibətdə tamamilə başqa cilddə görürük. O, şair ilə danışıqlarında daha çox dünyanın bütün tüstüsünü, acısını dadmış, dünyagörmüş bir filosof təsiri bağışlayır. Əbədi mərhəmət və məhəbbətdən danışan şairi öz-özlüyündə haqlı sayır. Lakin dünyanın ancaq mərhəmət və məhəbbətlə idarə oluna biləcəyi fikri ilə razılaşa bilmir.

Şair Kirmani əsərdə əsas qəhrəman olmasa da, içərisində yaşadığı ictimai həyatın münaqişə və ziddiyyətlərini cəsarətlə tənqid edən mütəfəkkir kimi yüksələ bilmişdir. Şair vətəndaş və şəxsiyyət olaraq onu həyəcana gətirən həqiqətləri dərin ictimai-fəlsəfi görüşləri, mühakimələri ilə şərh etməyə müvəffəq olmuşdur.

“Müəllif Topal Teymurun tənqidini Şair Kirmani vasitəsi ilə, İldırım Bəyazidin tənqidini isə Şeyx Buxari vasitəsi ilə vermişdir. Onlar hökmdarların atdıqları addımların ölkələrə və xalqlara yeni-yeni fəlakətlər gətirdiyini müxtəlif üsullarla söyləyirlər. Lakin, qələbələrdən gözlərini qan örtmüş hökmdarlar ədalət və haqq səsinə qulaq asmırlar”. (33,s.48)

Sülh, əmin-amanlıq mənəvi-əxlaqi rahatlıq və s. tərəfdarı kimi çıxış edən Kirmani Teymur müharibələrinin tarixini yazan adam olsa da, çalışır ki, bu müharibələrə ehtiyac olmasın. Burada Teymurun şəxsiyyətindəki ziddiyyətləri eynən Şair Kirmani obrazında da görə bilərik.

“İnsan axtarışı” kitabında Zümrüd Yağmur qeyd edir: “Kirmani siyasətçi deyil, o sənətini siyasətin əsiri etməyib, o sənətini sənətin qanunlarına tabe edib, Kirmaninin dünyasında şəxsiyyət və şair parçalanması yoxdur, Kirmanidə bütün əsər boyu sabitlik, dəyişməzlik mütləq olaraq özünü göstərir” (50, s.81)

Şair Teymur sarayında yeganə şəxsdir ki, onunla mübahisə edir, bəzən hətta ona öz etirazını bildirir. Bu imkan isə orta əsr saray tarixçisi üçün əsaslandırılmayacaq qədər böyük səlahiyyət idi. Vamberi German da Əmir Teymuru Şair Kirmaninin nəsihətlərinə və tənqidlərinə sağlam münasibət göstərən bir hökmdar kimi səciyyələndirmişdir.

"Bir dəfə Teymur öz sarayında şair və filosofları yığıb onlarla söhbət edirmiş. Məclisdə Teymurun sevimli şairi Kirmani də varmış. Necə olursa, söhbət insan şəxsiyyətini qiymətləndirməkdən düşür. Əmir Teymur Kirmaniyə xitabən soruşur:

- Əgər mən satılası olsaydım, sən məni neçə paraya qiymətləndirərdin.

- 25 quruşa! - deyə şair cavab verdi.

- Şair, sən bilirsən ki, mənim yalnız qurşağım bu qiymətə dəyər.

- Zatən mən də elə onu nəzərdə tuturam, - deyə şair Kirmani cavab verir.

Sonralar "Teymurnamə" əsərini yazmış şairin bu zarafatına Teymur ürəkdən gülmüşdü".(59)

Teymurla şairin mükalimələrində Teymurun şairə qarşı yumşaq davrandığının və müdrik bir filosof kimi onu dinlədiyinin şahidi oluruq:

"**Teymur.** Yenəmi şərab, möhtərəm şair? Yenəmi şərab?

**Şair.** Böyük cihangirin qanlı müharibələri ancaq qanlı şərabla yazıla bilir.

**Teymur.** Kinayəmi, yenə kinayəmi? Əylənmək istədiyin cihangirin qəzəbi səni qorqutmuyormu?

**Şair.** (laübali və tatlı təbəssümlə). Hökmdarların hiddət və qəzəbi böyük bir məmləkəti alt-üst edər, fəqət küçük bir şairi qorqutamaz. Əvət, bən yalnız gözəllərin itab və sərzənişlərindən mütəəssir olurum. Bəncə işvəkar bir qaşın çatılması, parlaq bir qılıcın çəkilməsindən daha mə'nalı, daha kəskindir.

**Teymur.** Sən çoq içiyorsun, halbuki məmləkət qanunu və türk adəti bunu şiddətlə mə'n edər.

**Şair.** Şairlər isə, adət və qanun çərçivəsini qırıb parçalamaqdan daha çoq zevq alırlar.

**Teymur.** (məmnun qəhqəhəylə). İştə səni bana sevdirən də şu rindanə xislət, şu qürur və əzəmətdir".(17, 264-265)

Şair Kirmani qan tökülməyinin əleyhinə olsa da o Teymurun şəxsiyyətinə qarşı ikrah hissi duymur, onun faciəsinin böyük məmləkətin hökmdarının keçirdiyi hiss və duyğuları anlayır. Teymur da yalnız qan tökmür, o hər zaman tənqidə açıqdır. Teymurda mühakimə var, şairdə isə müdriklik.

Bu obrazın vasitəsilə səslənən kəlamlar da Cavid sənətinin uğurlarından xəbər verir: "Əfsus ki, cəsurların həzyanı, həzyançıların cəsarəti qədər gülünc və mənasızdır".

Eyni zamanda Şair eşqdən və məhəbbətdən yazan şairləri təqdir edir, onları yüksək qiymətləndirirdi. Əsərdə Kirmani "eşq və gözəllik tarixi yazan şairlər daha yüksəkdir" – deyirdi.

Əsərin son dialoqunda Kirmaninin adından müəllifin öz təəssüf və milli təəssüb hislərinin ifadəsini görürük. Şairin dili ilə Cavidin başqa əsərlərində də qırmızı bir xətt kimi keçən məhəbbət ideyası burada da öz əksini tapmışdır:

**Şair.** "Məhəbbət! Məhəbbət!...Əvət, bütün bəşəriyyəti xilas edəcək yalnız məhəbbətdir. Məhəbbətlə çırpınan bir çoban qəlbi, kin və ədavət püskürən bir sultan qafasından daha şərəflidir.Əgər dünyanın şanlı çarpışmaları, qanlı vuruşmaları nəticədə bir məhəbbət, fövqəlbəşər bir məhəbbət doğurmayacaqsa…bütün həyata, bütün kainata nifrətlər olsun".(17, s.302)

"Şair Kirmani hər cür müharibə və qan tökülməsinin əleyhinədir. Onun fikrincə, insanlığa kömək etmək, haqq və ədaləti müdafiə etmək üçün insanlarda olan kin və küdurəti öldürə bilən sülh, məhəbbət, mərhəmət ideyalarını təbliğ etmək kifayətdir. Bəşəriyyəti xilas edəcək bir qüvvə varsa, o da məhəbbət və yalnız məhəbbətdir, "fövqəlbəşər" bir məhəbbətdir".(18, s.174)

Əsərdə Teymur məğlub etdiyi İldırımın da məhəbbətini qazanmaq istəyir. Kirmani isə fövqəlbəşər bir məhəbbət arzulayır. Bəşər daxilində fövqəlbəşər məhəbbət, ideal və əlçatmazdır. Kirmani "məhəbbətlə çırpınan çoban qəlbi"ni yüksək qiymətləndirir. Lakin həmin məhəbbət neçə insanı xoşbəxt edə bilər? İnsanların taleyi çobandan çox hökmdarlara bağlıdır. Hökmdar mərhəməti isə fəlakətdən ayrı mümkün deyil. Bunu Teymur özü də aydın dərk edir.

Cavid, "Topal Teymur" dramında öz dövrü haqqında olan ictimai-fəlsəfi

qənaətlərini də çatdırmağa müvəffəq olmuşdur. Belə ki, bütün dünyada zülmkar və müstəbid kimi tanınan Topal Teymur da şairə mənəvi azadlıq verir, onun ideyaları, fəlsəfi görüşləri ilə hesablaşır. Sosial bərabərsizliyi tənqid edən və humanizm prinsiplərini təbliğ edən Sovet imperiyasında isə nəinki mənəvi azadlıq, hətta Cavid kimi sovet ideologiyasına xidmət etməyən şairlərə yaşamaq hüququ da verilmirdi. Elə bu baxımdan əsərdə dövrünün mənəvi-əxlaqi ümumbəşəri problemlərini tarixi hadisələrin fonunda həll etməyə nail olmuşdur. Bir məsələni də xüsusilə qeyd etməliyik ki, bu əsərdə dramaturq ilə Teymurun saray şairi şair Kirmani və yaxud Anadolu filosofu Şeyx Buxari arasında eyniyyət düzəltmək yalnış bir üsuldur. Bu üsul, ədəbiyyatşünası əsərin ideyasını düzgün müəyyən etməkdən uzaqlaşdırır. H.Cavid nə yarımxarabatı şair Kirmanidir, nə də filosof Şeyx Buxari. O, tarixə sədaqət göstərərək, hadisələri düzgün təsbit etməklə, onları nisbətən romantikləşdirmişdir.

Şeyx Buxariyə gəldikdə isə, İldırım Bəyazid sarayında ona nə qədər hörmət edilsə də, əsasən hökmdarın özü tərəfindən çox zaman sözləri havadan asılı qalır, dəyərli nəsihətlərinə əməl edilmir.

Əri ilə oğlu “haqq qovğasında” öldürülmüş, yeganə yavrusu Laləciyinə alaca öküzlə birlikdə yeycək-geyəcək tədarük edən bir türk anasına qudurğan yeniçərilər zülm etmiş, bütün var-yoxunu öküzü ilə birlikdə talan etməkdən doymayaraq qızını da götürüb aparmışlar. Başına gələnləri yanıqlı-yanıqlı İldırıma söyləyən qadın ondan imdad diləyir. İldırımdan özünə imdad diləyən qadının və ona imdad etməyə borclu olan hökmdarın vəziyyətini çox gözəl ifadə edir:

“**Şeyx Buxari** (ətrafa). Zavallı qadın! Bilməz ki, yalvardığı padşahın içdiyi şərablar, yalnız yoqsul köylünün dökülən al qanlarından, qanlı göz yaşlarından tədarik olunur”.(17, s.290)

Şeyx Buxari bir qədər də irəli gedib Bəyazidə məsləhət görür ki, öz nəfsi ilə mübarizə etsin, rəqqasələrə uymasın, Serbistan prensesi Meliçanın təsiri altına düşməsin, sərxoş vəzirlərə alət olmasın. Lakin hökmdar bunların heç birin dinləmək istəmir və nəsihətlərə əməl etmirdi.

“Əsərdə xalq nümayəndələri özlərini hiss etdirəcək qədər qüvvətlidirlər. Vali

Mamay xan tərəfindən döyülən qoca kəndlinin qiyabi şikayəti, öküzü və yetişmiş qızı Lalənin yeniçərilər tərəfindən aparılmış ananın acı şikayəti, Fazil Şeyx Buxarinin qeydləri, növbətçi əsgərlərin müharibədən şikayəti hər iki dövlət başçısının idarə üsuluna, cahangirlik siyasətinə və apardıqları müharibələrə qara ləkə vurur. Qoca ilə qadının şikayəti məlumdur. Lakin Buxarinin İldırıma söylədikləri, növbətçilərin şikayəti ədalətsiz müharibənin mahiyyətini meydana qoyur. Şeyx Buxari cəsarətlə İldırıma deyir ki, qəzəb və hiddət insane mühakiməsini yalnış yollara salar. Mümkünsə, rəqqasələrə uyma! Serbstan şahzadəsinin ( Meliça xanımın ) nüfuzuna qapılma, sərxoş vəzirlərə alət olma… Üç cümlə ilə Fazil Şeyx Buxari Sultan İldırım Bəyazidin iç üzünü açır”. (13, s.21)

H.Cavid Şeyx Buxarinin dili ilə İldırım Bəyazidin faciəvi sonluğuna əsas verən xəstə qürurunu, onun nəsihətlərə əməl etməyərək tarixi səhvlərə rəvac verdiyini yüksək bədiiliklə təsvir etmişdir.

M.Əlioğlunun da dediyi kimi “Şübhəsiz, mübahisənin gedişində şair üstünlük qazanır və real gerçəkliyə əsaslanan fikirləri ilə fatehi məğlub edir”. (21, s.206)

Dramda bir-birinə zidd olan iki hökmdar obrazı ilə bərabər, eyni paradoksallığı təşkil edən iki vəzir sürəti də verilmişdir. Onlardan biri İldırım Bəyazidin sarayında fəaliyyət göstərən Əli Paşadır. İldırım Bəyazidin sədr-əzəmi olan Əli Paşa tarixi mənbələrdən də məlum olduğu kimi Osmanlı dövlətinin sədr-əzəmi Çandarlızadə Əli Paşa adı ilə tanınır.

Tarixi qaynaqlardan da məlum oluğu kimi Əli Paşanın alim, dəyərli və səriştəli bir sərkərdə, ağıllı siyasətçi olduğunu yazırlar. Alim və aqil şəxs olmasına baxmayaraq mənbələrdə kefcil və nəfsinə tabe bir şəxs kimi qeyd olunub. Elə İldırımı Teymura qarşı sövq edən də o olmuşdur. Teymurun düşmənlərini qanadı altına almağı İldırıma məsləhət görən, həmin ədəbsiz məktubun yazılmasında iştirak edən də Əli Paşadır.

Hadisələr inkişaf etdikcə biz sədr-əzəmin fərdi-psixoloji xüsusiyyətlərini, səciyyəsini və xasiyyətinin bütün eybəcərliyini görürük. Bundan başqa Əli Paşa İldırım Bəyazidi dövlətdə baş verən siyasi hadisələrlə də vaxtında xəbərdar etmir. Hətta özü təcrübəli vəzir olduğu halda siyasi vəziyyəti qəsdən düzgün

qiymətləndirməkdən yayınır.

Əli Paşa kimi riyakar, Serbistan prensesi, İldırımın hərəmi olan Meliça yaşadığı məmləkətin xalqına, adət-ənənələrinə tam biganədir. Sarayı serb, rum və digər ölkələrin rəqqasələri ilə dolduran bu yadelli qadın şamlı qızın rəqsini heç cür anlayıb qəbul edə bilmir. Sədrəzəm Əli Paşa ilə qədəh-qədəhə vuran, dövlətin hər işinə qarışan Meliçanı qardaşı serb kralından başqa heç kim düşündürmür. Başı içkidən ayrılmayan Bəyazidi də şəraba dadandıranlardan biri də odur:

“**Əlipaşa.** Rica edərim Teymuru bıraqınız, bunları buraya niçin gətirdilər?

**Yıldırım.** Təbii, içilmək için.

**Əlipaşa.** (qədəhləri doldurur, Meliçaya). Müsaidənizlə, yarım sərxoş isəm də, şövkətli Sultanımın ən sevgili hərəmi şərəfinə bir qədəh içmək istərim. Var olsun Meliça həzrətləri! İçərlər.

**Meliça.** Doğrusu səmimiyyət və nəzakətiniz bəni heyran ediyor.

**Yıldırım.** Əvət, Əli paşa əmsalsız bir vücuddur. (Əli paşaya). İşrət xüsusunda sevgili Meliça bana ilk rəhbər isə, sən də ikinci müəllimsin. Nə yapalım, şərab dinimizcə günah isə də, amma nəş’əli bir günahdır.

**Əlipaşa.** Bəncə ibadət də lazım, işrət də. Tövbə qapısı daima açıqdır. (Təkrar qədəhləri doldurur). Digər vəzir isə Teymurun sarayında fəaliyyət göstərən Divanbəyidir. Əli Paşa İldırımı müharibəyə təhrik etdiyi halda, Divanbəyi Teymuru hərbdən çəkindirməyə, hər işi sülh və əmin-amanlıq yolu ilə qaydaya salmağa səy göstərir”.(17, s.276-277)

Əsil dövlət adamı Divanbəyi kimi düşünüb daşınmalı, hökmdara nəsihət verəndə bütün dünya siyasətini, ölkənin daxili vəziyyətini nəzərdə tutmalıdır. Divanbəyini ağıl və müdrikliyinə görə özü kimi tədbirli və sülhü daim üstün tutan Şeyx Buxari ilə müqayisə etmək olar. Düşmən cəbhələrdə olsalar belə, onları birləşdirən bir cəhət var. O da türk dünyasının və bütün insanların taleyini qlobal sürətdə düşünmək tərzidir.

Gördüyümüz kimi H.Cavid bu möhtəşəm əsərində bir-birini təkrar etməyən, bənzərsiz obrazlar silsiləsi yaratmışdır.

Əsərdə təsvir olunan Orxan surəti ədəbiyyatımızda ilk kəşfiyyatçı obrazı kimi

diqqətimizi çəkir. Dövlət işlərində gizli tapşırıqları yerinə yetirən şəxslərin buraxdığı səhvlər çox vaxt həm özləri, həm də dövlət mənafeyi üçün təhlükəli nəticələr verir. Teymur kimi bir hökmdarın sarayından Orxanın Olqanı qaçırtması, bağışlanmaz bir günah idi. Lakin onun bu səhvi təsadüf nəticəsində ümumi işə xeyir verir və İldırımı onun xain olmağına inandırır. Osmanlı sarayında artıq güvənilən adam olan Orxan, Teymur tərəfindən qarşısına qoyulan tapşırıqlara bütünlüklə əməl edir. Lakin döyüş zamanı gəlib çatdıqda yenidən öz ordusuna qayıdan Orxan öz gördüyü işlər barədə Teymura hesabat verir. Gördüyü işlərin böyüklüyünə baxmayacağını düşünən Orxan, Teymurun onu bağışlamayacağını düşünür və cəllad tərəfindən əzab çəkməkdənsə, özünü öldürməyi üstün tutur. Teymurun gözlənilməz cavabı Orxanı heyrətə gətirir. "Əvət, sənin məharət və cəsarətin işlədiyin qəbahətdən daha böyükdür. Olqayı, o dəyərli yadigarı mükafat olaraq sənə bağışladım. Fəqət, qəlbin onun, düşüncə və biləklərin bizim olsun" – deyən Teymurun necə bir insan olduğu və sevgiyə, məhəbbətə böyük önəm verdiyini görürük.

Eyni zamanda dram əsərində təsvir olunan Cücə obrazı da ədəbiyyatımızda yaranan ilk təlxək obrazıdır desək heç tərəddüd etmərik. "Topal Teymur" əsərində verilən Cücə-təlxək surəti dünya dramaturgiyasında verilən əsl həqiqəti gülüşə büründürülmüş şəkildə söylənən təlxək obrazlarından bəlkə də bir boy yuxarıda durur. Cücə İldırım Bəyazidin hüzurunda Teymuru yamsılamaqla bütün xaqanları onların öz dili ilə ifşa edir". (6, s.93-94)

Dar mənada təlxək saray xidmətçilərindən birinin adıdır. Bu xidmətçinin üzdə görünən əsas işi hökmdarı əyləndirməkdən, qanının qara vaxtlarında hökmdarın eynini açmaqdan ibarətdir. Sarayda xüsusi yerı olan təlxəklər xalq arasında da məşhur olublar. Məsələn, Lotu Qulunun adı Qarabağda bu gün də dillər əzbəridir. Lotu Qulu Qarabağ xanlığının əsasını qoyan Pənahəli xanın təlxəyi olub. Əvvəllər meşədən odun yığıb satmaqla məşğul olan Qulunun hansı cəhəti Pənahəli xanın diqqətini cəlb edib ki, xan onu özünə təlxək götürüb? Təkcə baməzə olmasımı? Atmacalar deyib. əhvalatlar danışıb adamları güldürməsimi? Əlbəttə, yox. Pənahəli xana gərək olan Qulunun adamları yamsılamaq qabiliyyəti idi. Bəli, adamları yamsılamaq ustası olan Lotu Qulu Pənahəli xanı da təqlid etməli və yeri gələndə

onun məzəli əvəzedicisi - dublyoru olmalı idi.

H.Cavid də Cücə obrazından çox məharətlə istifadə etmişdir. Əmir Teymurun tərcümeyi-halının verilməsində, saray həyatının eybəcərliklərini təsvir etməsində bu obrazın rolu böyükdür.

K.Əliyev “Romantizm və folklor” əsərində Cücə obrazından yazmış, sənətkar ustalığı kimi qiymətləndirmişdir: “Cücə son dərəcə təcrübəlidir. O, yaxşı başa düşür ki, İldırım Bəyazidin xoşuna gəlməkdən ötrü Topal Teymurun canlı bir obrazını yaratmalıdır və bu obraz kifayət qədər gülüş doğurmalıdır...Beləliklə səhnə içərisində səhnə meydana çıxır. Daha əhəmiyyətlisi isə odur ki, bu daxili səhnə hər hansı bir klassik dramaturqun (məsələn, Şekspirin!) əsərindən deyil, xalq tamaşasından, xalq oyunundan götürülmüşdür.

Deməli H.Cavid yaradıcılığında müasir düşüncə tərzi ilə xalq təfəkkürü qovuşuq halına gəlir”. (27, s.73)

Saraylarda təlxəklərin əsas vəzifəsi təkcə hoqqabazlıq edib ətrafdakıları əyləndirmək deyil, o həm də hökmdarı səhv addımlardan çəkindirməli, dostunu-düşmənini ona tanıtdırmalıdır.

Yeri gəlmişkən deyək ki, təlxəyin hökmdara ərkyana münasibəti və bu münasibət çərçivəsində hökmdarın nöqsanlarını tənqid hədəfinə çevirməsi folklordan yazılı ədəbiyata da keçib və görkəmli sənətkarlar bu üsuldan məharətlə istifadə ediblər. Təlxəyin dili ilə hökmdarı tənqid etmək üsuluna "Vaqif' əsərində S.Vurğun da üz tutur. H.Cavidsə "Topal Teymur" əsərində təlxək obrazını yalnız gülüş yox, həm də qorxu, vahimə yaratmaq vasitəsinə çevirir. Yıldırım Bayazidin göstərişi ilə Topal Teymuru yamsılamalı olan Cücə adlı təlxək Yıldırım Bayazid və onun yaxın adamlarında qorxu hissini məhz Əmir Teymurun dilindən söylədiyi sözlərlə yaradır: "Mənə xaqanlar xaqanı, Turağay oğlu Teymur derlər... Mənəm yaralı aslan, mənəm Topal Qaplan"

Hər üç sənətkar folklordan gələn obraza yeni cizgilər əlavə edir, onu əsərdəki konkret hadisə və qəhrəmanlara uyğunlaşdırır. V.Şekspirin təlxəyi filosofu xatırladır, S.Vurğunun təlxəyi kəskin atmacaları, sərrast eyhamları ilə yadda qalır, H.Cavidin Cücəsi məzəli atmacalarla kifayətlənməyib baş qəhrəmanın obrazını yaradan mahir

aktyor kimi çıxış edir. Bu misalları çəkməkdə əsas məqsədimiz təlxəyin hökmdara tənqidi münasibətinin dərəcəsini götür-qoy etməkdir. Yazılı ədəbiyyat nümunələri də göstərir ki, təlxəyin hökmdara tənqidi münasibəti hökmdarla toqquşma səviyyəsinə qalxmır. Nə qədər kəskin atmaca və sataşmalara məruz qalsa da, hökmdar təlxəyin tənqidi sözünü məhz oyunbazın, hoqqabazın sözü kimi qəbul edir və təlxəyin dediyinə baş qoşub dərinə getməyə lüzum görmür. Topal Teymur roluna girib bir vahimə əmələ gətirən Cücəni Yıldırım Bayazid: "Haydı, yetişər, dəf ol! Sən bu axşam zəhərli bir tikən, sərsəm eşşək arısı, quduz bir köpəksən!" - deyib məclisdən qovmaqla kifayətlənir, təlxəyi asıb-kəsmək Yıldırım Bayazidin ağlına da gəlmir.

Cücənin eyni zamanda saray xidmətçisi, mövhumatçı dindar Nazim ağa ilə etdiyi zarafatlarda da dərin fikirlər yatmaqdadır. Nazim ağa kimi mövhumatçı, cahil müsəlmanları Cücənin dili ilə ədib tənqid etmişdir.

Təlxək Topal Teymuru və Sultan Bayazidi tənqid edir, amma bu tənqiddə düşmənçilik məzmunu yoxdur.

Teymurun dilindən Cücənin fəxriyyə söyləməsi ilə İldırımın özünün fəxriyyə söyləməsi də dramın maraqlı bədii paralelini təşkil edərək ədibin sənətkarlıq xüsusiyyətlərindən biri olaraq ideya-estetik qayəyə xidmət edir.

Dramaturq bu əsərində müharibə və insan, hökmdar və şair, siyasət və əxlaq, dövlət və rəiyyət və s. kimi problemlərə toxunaraq romantik bir sənətkar kimi düşünən, mübarizə aparan, humanist insanı ön plana çəkir.

Eyni zamanda “Topal Teymur” əsəri sənətkarlıq xüsusiyyətləri baxımından da maraq doğurur. Dramda hadisələr zaman-məkan paralelliyi əsasında cərəyan edir. Hadisələr Səmərqənddə - Teymur sarayında və Bursada İldırım Bəyazid sarayında cərəyan edir. Saraydakı hadisələr əsasən ardıcıldır və eyni zamanda baş verir. Lakin, üçüncü və dördüncü pərdələrdə məkan eyni olsa da hadisələrin baş vermə zamanı müxtəlifdir. Sonuncu pərdədə isə müharibə meydanı əks olunur və bu pərdədə hadisələr son həddə çatıb tamamlanır. Rəngarəng münasibətlər, müxtəlif tipli xarakterlər əsərin mükəmməl olduğunu bir daha ön plana çəkir.

“Məlumdur ki, hər bir xalqın tarixi, tarix boyu onun yaratdığı obrazların – şəxsiyyətlərin tarixidir. Tarixi epoxaların maddi-məişət gündəlikləri heç bir xalqın

tarixi salnaməsini yarada bilməz. Bu amillər yalnız böyük, tarixi müəyyən edən şəxsiyyətlərin fəaliyyət kontekstidir. Bütün tarixi obrazlar bütöv xalqın obrazını, onun fərdi və ümumi tərəflərini müəyyən edir. Bu gün tariximizin doğru yazılmamasından, saxtalaşdırılmasından danışan böyük şəxsiyyətlərə münasibətin ön yerdə dayanması təbiidir”. (7, s.30)

Dramaturq həmişəyaşar əsərləri ilə mənəvi-əxlaqi, ictimai-siyasi problemlərə yüksək həssaslıqla yanaşmış, bu da onun əsərlərinin bütün dövrlər üçün müasir qalmasını təmin etmişdir.

# NƏTİCƏ

Hüseyn Cavid yaradıcılığının ən qiymətli əsərlərindən biri olan "Topal Teymur" əsəri yarandığı dövrdən diqqətləri öz üzərinə çəkmişdir. Sovet ədəbiyyatşünaslığı bu əsəri pantürkist ideyaların məhsulu olaraq görsələr də zamanla əsər öz qiymətini layiqincə almışdır. Uzun illər Cavid türkçülüyü, turançılığı tərənnüm etdiyi, türk-islam tarixinə üz tutduğu üçün "pantürkist", "panislamist", "panturanist" kimi damğalarla ittiham edilmiş, çeşidli təzyiqlərə məruz qalmışdır. Lakin qarşılaşdığı bütün təzyiq və maneələr onu qəlbi, ruhu, həyatı ilə bağlı olduğu məqamlardan döndərə bilməmişdir.

"Topal Teymur" dramında müəllif bir sıra aktual suallar qoyub onlara cavab verməyə çalışmışdır. Pyesdə müəllifin qayəsi kimisə idealizə etmək yaxud kimisə pisləmək ona mənfi münasibət bildirmək olmamışdır. H.Cavidin geniş və əhatəli ədəbi irsini Şərq və Türkiyə kontekstində təhlil etmədən yaradıcılığını tam şəkildə öyrənmək və qiymət vermək mümkün deyildir. Cavid bir tərəfdən, türk tarixinin ehtişamını, digər tərəfdən onun faciəli məqamlarını əks etdirmişdir. Ədib Teymurun əlinə qılınc alıb müharibələr törətməsinə və sərxoş hömdarların milləti idarə etməsinə qarşı çıxmışdır. Bu toqquşmanın hər iki türk qövmünə vurduğu ziyanları saymaqla bitməz. İki böyük türkün, iki möhtəşəm xarakterin üz-üzə gəlməsi türk dünyasının qüdrətini sarsıtdığına, qardaş xalqları cəfalətə saldığına görə Cavid qələmi tərəfindən yüksək bədiiliklə tərənnüm olunmuşdur.

Dramaturq "Topal Teymur"da müharibə və insan, hökmdar və şair, siyasət və əxlaq və s. problemlərə toxunaraq romantik bir sənətkar kimi humanist insani keyfiyyətləri ön plana çəkir.

Bəşəriyyəti ülviyyətin zirvəsinə çatmağa ilhamlandıran Cavid sənəti işıqlı, humanist, bəşəri ideyaları ilə hər zaman aktual olmuşdur.

Cavid "Topal Teymur" əsərində dövrünün mənəvi-əxlaqi ümumbəşəri problemlərini tarixi hadisələrin fonunda həll etməyə nail olmuşdur. H.Cavid, məhz türk romantizm məktəbindən təsirlənərək milli tarixi kökləri düzgün araşdırmış,

türkçülüyün böyük təbliğatçısına çevrilmişdir.

Sənətkar tarixi mövzuda yazdığı dramlarda quru faktlara, xronologiyalara, biblioqrafiyalara əsaslanmamışdır. Cavidin əsərlərini də həmişə aktual edən məhz tarixə bu cür yanaşma tərzidir. Onun əsərlərində müasirlik ilk baxışda gözə çarpmır, əksinə bu amil əsərin mahiyyətində, dərin qatlarında saxlamış olur.

Ətrafında baş verən gözəlliyi və irəliyə doğru dəyişməyi görməyən şəxslərə ədib Əmir Teymur obrazını səhnəyə gətirməklə dərs verir. Dünyanın yarısını işğal edən bu qəhrəman əslində dünyadan heç bir şey aparmadan onu tərk etdi. Cavid bu əsəri ilə hakimlik iddiası ilə yaşayanlara, danışan dilləri susduranlara, qan tökməyə həris olanlara, dünyanın faniliyini və haqqın gec tez, amma mütləq qalib gələcəyini söyləyən bir mesaj göndərdi.

Hüseyn Cavid sənətinin başlıca prinsipi dövrün psixoloji-mənəvi ruhunu, başlıca mahiyyətini əks etdirmək, tarixi hadisə və faktların mənasını açmaq, onları müasir dövrlə bağlamaq olmuşdur.

Sənətkar müraciət etdiyi mövzuya, əks etdirdiyi həyat və zamana yüksək ictimai-əxlaqi idealları öz dünyagörüşü mövqeyindən ifadə etməyə çalışmışdır. Buna görə də mövzu istər müasir gerçəklikdən götürülsün, istərsə də tarixi hadisə və şəxsiyyətlərdən bəhs etsin, müəllif eyni ideya bədii məqsəd izləyir: müasir insanı düşündürən ictimai-əxlaqi məsələləri əks etdirməyə çalışır. Sənətkar mövzunun hansı dövrdən alınmasından asılı olmayaraq, öz məqsədinə məhz hadisələri müasirlik və tarixilik mövqeyindən əks etdirməklə nail olur.

H.Cavid sənətkarlığının iki istiqamətdə təzahürü özünün tarixi əsərlərində bütün qabarıqlığı və keyfiyyəti ilə biruzə verir. Belə ki, drammaturq birincisi tarixi şəxsiyyətlərin xarakterlərinə uyğun olaraq verilməsinə çalışır, ikincisi isə bu konteksdə tarixi şəxsiyyət kimi məlum olan baş qəhrəmana həm romantik vüsət verir, həm də onu müasirləşdirməyə cəhd edir.

Ədib Şərqin iki böyük hökmdarının dünyaya “hakimi mütləq” ehtirasından doğan qanlı mübarizələrinin bütün türk dünyasına necə zərbə vurduğunu tarixin ibrətamiz dərsi kimi səciyyələndirə bilmişdir.

“Topal Teymur” pyesi həm fəlsəfi məzmununa, həm yüksək bədiiliyinə həm də

tarixilik və müasirliyinə görə H.Cavid dramaturgiyasının, eləcə də Azərbaycan və Türk ədəbiyyatının ən önəmli və yüksək bədii idealları özündə cəmləşdirən əsəridir.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

## Azərbaycan dilində

1. Azər Turan. Hüseyn Cavid yaradıcılığının ədəbi, elmi, tarixi, məfkurəvi və dini qaynaqları. Bakı, Vektor nəşrlər evi, 2007, 286s.

2.Azərbaycan qəzeti, 1noyabr 1996-cı il, Heydər Əliyevin oktyabrın 29-da Naxçıvanda böyük ədib H.Cavidin məqbərəsinin təntənəli açılışı mərasimində nitqi.

3. A.Bakıxanov. Gülüstani-İrəm (Tərcumə edeni M. Əskərli) - Bakı: Minarə, 2000. - 224 səh

4. Azərbaycan Sovet Ensiklopediyası. 10 cilddə, X cild. Bakı: ASE, 1986, 687 s.

5. Azərbaycan qəzeti, 1918-1920

6. Abdullayev C. Həsənoğlu A. Hüseyn Cavid. Bakı, Səda, 1997

7. Alışanlı Şirindil. Müasir humanitar təfəkkür və Azərbaycan ədəbiyyatşünaslığı. Bakı: Elm, 2011, 376 s.

8. Ağayev Müstəqil. Hüseyn Cavidin dünyagörüşü. Bakı: Təknur, 2005, 188 s.

9. Azər Turan. Cavidnamə. Bakı: “Elm və təhsil”, 2010, 576 s.

10. Babaxanlı Gülbəniz. Azərbaycan ədəbi fikri və Hüseyn Cavid. Bakı: Çaşıoğlu, 2010, 214 s.

11.Borodin Sergey. İldırım Bəyazid. Bakı: Gənclik, 1979, 568 s.

12. Cavid Hüseyn. Topal Teymur. Bakı: Elm, 2010, 104 s.

13. Cavidi xatırlarkən...Bakı: Gənclik, 1982, 392 s.

14. Cavid Hüseyn.Əsərləri 5 cilddə, II cild. Bakı, Lider nəşr. 2005, 352 s.

15. Cavid Hüseyn. Əsərləri 5 cilddə, I cild. Bakı, Lider nəşr. 2005, 214s.

16. Cavid – ömrü boyu. Həyat və yaradıcılıq salnaməsi. Bakı: Yazıçı, 1982, 296 s.

17. Cavid Hüseyn. Əsərləri 5 cilddə III cild. Bakı,"Lider nəşriyyat", 2005, 304 s.

18. Cəfərov M.C. Hüseyn Cavid. Bakı, Azərnəşr, 1960

19. Cavid M. Cavidi xatırlarkən. İşıq nəşr., Bakı, 1976

20. Çoxcildli "Cavidşünaslıq" araşdırmalar toplusu V cild, Bakı, Proqres, 2012

21. Əlioğlu Məsud. Hüseyn Cavidin romantizmi. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı,1975, 215 s.

22. Ənvəroğlu Himalay. Azərbaycan ədəbiyyatının yaradıcılıq problemləri. Bakı: Elm, 2004, 773 s.

23.Əfəndiyev T.İ. Azərbaycan dramaturgiyasında metodlar. Bakı: Elm, 2002, 511 s.

24. Əfəndiyev Timurçin. Romantik dramlarda tarixilik və bədiilik (təqdim edilən doktorluq dissertasiyasının avtoreferatı). Bakı: 1995, 45 s.

25. Əfəndiyev Timurçin. Hüseyn Cavidin ideyalar aləmi. Bakı: Yazıçı, 1985, 206 s.

26. Əmir Teymurun vəsiyyətləri. Bakı, Azərnəşr, 1999, 112 s.

27. Əliyev Kamran. Romantizm və folklor. Bakı: Elm, 2006

28. Əzizova Nəzakət. H.Cavid dramlarında insan, iblis, Peyğəmbər. Bakı: 2000

29. Fərzəlibəyli Şahin Fazil. Azərbaycan və Osmanlı imperiyası. Bakı, Elm, 1999, 208 s.

30. Hüseynzadə Ə. Türklər kimdir və kimlərdən ibarətdir?. Bakı, Mütərcim. 1997, 292 s.

31. Hacıyev Tofiq. Dədə Qorqud:dilimiz, düşüncəmiz. Bakı: Elm, 1999, 216 s.

32. Hənəfi Zeynallı. Seçilmiş əsərləri. Bakı: Yazıçı, 1983, 172 s.

33. Hacıyev Dursun. Azərbaycan ədəbiyyatında tarixi dram. Bakı: Yazıçı, 1983, 159 s.

34. Hüseynov Rəfael. Vaxtdan uca. Bakı: İşıq, 1989, 363 s.

35. Hacıyev Dursun. Azərbaycan ədəbiyyatında tarixi dram. Bakı: Yazıçı, 1983, 159 s.

36. İsmayılov Əjdər. Dünya romantizm ənənələri və Hüseyn Cavid. Bakı, Yazıçı, 1983, 220 s.

37. Qurbanov Rasim. Cavidin estetik görüşləri. Bakı: Gənclik, 2009, 157 s.

38. Qarayev Yaşar. Tarix yaxından və uzaqdan. Bakı, "Sabah", 1968

39. Qarayev Yaşar. Cavid: Sənətkar və tarix/ Azərbaycan jurnalı, 1982, №8, s. 25

40. Qasımov Cəlal. Əsrin qiyamət çağı. Bakı, "Azərbaycan Ensiklopediyası" NPB, 128 s.

41. Məmmədova Tahirə. XX əsr Azərbaycan dramaturgiyasının poetikası. Bakı:Elm, 1999, 208 s.

42. Rəsulzadə M.Ə. Əsrimizin Siyavuşu. Çağdaş Azrbaycan ədəbiyyatı, Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik, 1991, 83 s.

43. Sadıqov Şəmil. Cavid yaradıcılığında sənətkarlıq məsələləri. Bakı, Şirvannəşr, 2002, 60 s.

44. Sultanlı Ə. Məqalələr. Bakı, Azərnəşr, 1971

45. Salamoğlu Təyyar. Müasir Azərbaycan romanının poetikası. Bakı: Elm, 2005, 280 s.

46. Türkəqul Mustafa Haqqı. Azərbaycan Türk şairi Hüseyn Cavid. Bakı-Azərbaycan, Gənclik yayınları, 2002, 153s.

47. Tuncər H. "Türk yurdu" üzərinə bir incələmə. Ankara, 1990, 503s.

48. Vamberi German. Əmir Teymur. Bakı: Kitab palatası, 1991, 82 s.

49. Yüz böyük türk. Bakı: “Kommunist nəşriyyatı”, 1991, 128 s.

50. Yağmur Zümrüd. İnsan axtarışında. Bakı: Günəş nəşr., 1998, 128 s.

## Türk dilində

51.Enver Uzun A. Hüseyn Cavid ve Türkiyə ədəbiyyatı. Bakı: Günəş şəşriyyatı, 1998, 167 s.

## Rus dilində

52. Аджи Мурад. Тюрки и мир. Москва: АСТ, 2006, 649 с.

53. Алышанлы Шириндил. Романтизм: споры, истины. Баку: Елм, 2000, 180 с.

54.http://www.cavid.gen.az/page.php?file=maral&page=200

55. http://kayzen.az/blog/dahil%C9%99r-maraql%C4%B1/3394/%C9%99mir-teymur.html

56. http://tarix.info/serkerdeler/528-399mir-teymur.html

57. http://modern.az/articles/32558/1/

58. http://az.wikipedia.org/wiki/%C6%8Fmir_Teymur

59.http://az.wikisource.org/wiki/%C6%8Fmir_Teymur_v%C9%99_%C5%9Fair_Kirmani